

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 47 (838) ■ 30 noyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Belarus Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri

Noyabrın 28-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Dövlətimizin başçısı İlham Əliyev ali qonağı qarşılayıb və hər iki prezident fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Aleksandr Lukaşenkoya, Belarus Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.



Rəsmi qarşılanma mərasimindən sonra prezidentlərin təkbətək və geniş tərkibdə görüşü olub. Azərbaycan və Belarus arasında sənədlərin imzalanma mərasimindən sonra hər iki ölkənin dövlət başçısı mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan və Belarus arasında dəfələrlə keçirilmiş rəsmi, eyni zamanda işgüzar görüşlər çox səmimi, açıq, dostluq xarakteri daşıyıb. Tərəflər arasında yeni imzalanan sənədlər arasında prezidentlərin imzaladığı və əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən, eləcə də münasibətlərimizin ruhunu və xarakterini əks etdirən Birgə Bəyanat xüsusi yer tutur: «Biz Belarus tərəfinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində tutduğu mövqeyə görə çox minnətdarıq. Belarus həmişə qanunun aliliyinin, beynəlxalq hüququn və beynəlxalq təşkilatların qərar və qətnamələrinin yerinə yetirilməsinin tərəfdarıdır. Biz qətiyyətlə əməkdaşlıq potensialının gücləndirilməsi niyyətindəyik. Biz beynəlxalq qurumlarda bir-birimizi fəal dəstəkləyirik. Bizim ölkələrimiz arasında qarşılıqlı dəstək artıq reallıqdır və sanki avtomatik rejimdə həyata keçirilir. Bizim ya Belarusun, ya da Azərbaycanın üzv olmadığı təşkilatlarda həmişə bir-birimizi dəstəkləməyimiz, söz deməyimiz xüsusilə dəyərlidir».

Dövlətimizin başçısı bildirib ki, biz yaxşı qarşılıqlı fəaliyyət, birgə layihələrin reallaşdırılması tarixinə malikik. Onların arasında traktorların istehsalı üzrə zavod xüsusi yer tutur. Qısa vaxtda Belarus tərəfi Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verən müasir super istehsal sahəsi yaratmağa böyük kömək göstərib. İstehsal olunan maşınların, mexanizmlərin, traktorların başqa ölkələrə ixracına başlanılıb. Elm, təhsil sahəsində də böyük potensial var. Aqrosənaye kompleksləri sahəsində əməkdaşlıqla bağlı hərtərəfli müzakirələr aparılıb. Prezident İlham Əliyev Azərbaycanın Belarusda, Belarusun isə Azərbaycanda ticarət evlərinin yaradılması barədə qərar qəbul olunduğunu, qarşılıqlı mal dövriyyəsinin artırılması üçün addımlar atılacağını bəyan edib.

Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış edərək bildirib ki, hər iki ölkə arasında münasibətlərin böyük tarixi var. Artıq bu münasibətlərin yaranmasından 20 ildən çox vaxt keçir. Tərəflər beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq edir, bir-birini dəstəkləyir. Qeyd olunub ki, ticari-iqtisadi əməkdaşlığı artırmaq üçün təşəbbüslər göstərilir: «Gələn il biz əmtəə dövriyyəsinin həcmini 700 milyon dollara çatdıra bilərik. Bu isə ən əlverişli ildəkindən, demək olar ki, iki dəfə çoxdur. Məlum oldu ki, bizdə hələ istifadə edilməyən ehtiyatlar çoxdur. İlham Heydər oğlu indicə dedi ki, biz kənd təsərrüfatında sadəcə malgöndərmələr, qarşılıqlı mübadilə layihəsi üzərində işləməyə hazır olmaqla kifayətlənməyib, burada bəzi kənd təsərrüfatı müəssisələrini tam təhvil verməyə hazırıq. Biz burada ən müasir müəssisə tikməyə hazırıq ki, Azərbaycandakı həmkarlarımız bu müəssisənin nə demək olduğunu öz gözləri ilə görə bilsinlər. Ola bilsin ki, bu təcrübə Azərbaycanda təkrarlanmaq üçün yarayar. Biz qarşılıqlı surətdə hazırıq ki, Azərbaycan öz mallarını Belarus bazarında daha geniş təqdim etsin. Özü də təkcə Belarus bazarında yox, - hər halda bu, Avropanın mərkəzidir, - biz Azərbaycan mallarının həm Avropada, həm də Avrasiya İqtisadi İttifaqında satışına kömək göstərməyə hazırıq». Belarus Prezidenti yeni kooperativ layihələr barədə də danışıqlar aparıldığını, tütün sahəsində əməkdaşlıq edildiyini, pambıq parça kombinatı ilə kooperasiyanın mümkünlüyü məsələsinin nəzərdən keçiriləcəyini, Azərbaycandan şərabçılıq sənayesi və meyvə məhsulları almaq niyyətlərini bəyan edib. Bildirib ki, Azərbaycan xalçalarının Belarusda, Azərbaycanda isə dərman istehsalının təşkili mümkündür.

Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya «Heydər Əliyev» ordeninin təqdim edilməsi mərasimi olub. Tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonun «Heydər Əliyev» ordeni ilə təltif olunması barədə sərəncam imzaladığını bildirib. Dövlətimizin başçısı qeyd edib ki, müasir Azərbaycanın banisi olan ulu öndərin adını daşıyan «Heydər Əliyev» ordeni ali dövlət mükafatıdır və Azərbaycan xalqı qarşısında xüsusi xidmətlərə görə həm yerli vətəndaşlara, həm də xarici ölkə vətəndaşlarına təqdim olunur. Azərbaycan və Belarus dövlətləri arasında münasibətlərin əsasının qoyulmasında ulu öndər Heydər Əliyev və Aleksandr Lukaşenkonun xidmətlərini məmnunluqla xatırladan dövlətimizin başçısı Belarus Prezidentinin öz ölkəsinin dövlətçiliyinin inkişafında və əldə edilən nailiyyətlərdə rolunu xüsusi vurğulayıb, bu gün Belarusun müasir dinamik inkişaf edən dövlətə çevrildiyini qeyd edib. Məhz buna görə də Belarus xalqının Prezident Aleksandr Lukaşenkonun bu fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib. Sonra Prezident İlham Əliyev «Heydər Əliyev» ordenini Aleksandr Lukaşenkoya təqdim edib.

Azərbaycanın ən ali mükafatı ilə təltif olunduğuna görə dövlətimizin başçısına minnətdarlığını bildirən Aleksandr Lukaşenko ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri həm onun üçün, həm də Belarus xalqı üçün çox mötəbər insandır.

# Prezident İlham Əliyev: *«Azərbaycanda bir bina da qəzalı vəziyyətdə olmamalıdır»*

Bakı şəhərinin və ətraf qəsəbələrin yararsız vəziyyətdə olan yaşayış binalarının yerində Prezident İlham Əliyevin təşəbbüsü ilə yeni layihələr əsasında ən müasir standartlara uyğun binaların tikilməsi paytaxtımızda növbəti sosial layihələrin uğurlu icrasına start verəcək.



Noyabrın 25-də Sabunçu rayonunun Ramana qəsəbəsində qəzalı vəziyyətdə olan binanın sakinləri üçün tikilmiş yeni binanın açılışı olub. Mərasimdə iştirak edən Prezident İlham Əliyevə bildirilib ki, Ramana qəsəbəsi, Bünyadzadə küçəsi, 23 ünvanında yerləşən yaşayış binası 1901-ci ildə neftçilər üçün inşa edilmiş və uzun illər istismar olunduğundan qəzalı vəziyyətə düşmüşdü. Rayon ərazisində qəzalı vəziyyətdə olan binaların sökülərək yerində müasir tələblərə cavab verən yenilərinin tikilməsi ilə əlaqədar qeyd olunan qəzalı binada yaşayan 34 ailə - 147 sakin kirayə haqları ödənilərək binadan köçürülüb. 2015-ci il dekabrın 24-də onun yerində «Pilot layihə» formatında 10 mərtəbəli, iki və üç otaqlı 80 mənzilli yeni yaşayış binasının inşasına başlanılıb.

Dövlətimizin başçısı binadakı mənzillərdə yaradılmış şəraitlə tanış olub. Bildirilib ki, yeni binanın tikintisi noyabrın 9-da - Dövlət Bayrağı Günündə başa çatdırılıb. Ümumi sahəsi 5768 kvadratmetr olan binadan 34 ailəyə tam təmirli, bütün şəraiti olan, müvafiq avadanlıqlarla təchiz edilmiş və sahələri əvvəlkindən 35-45 faizdən çox olan mənzillər verilib.

Yeni binanın sakinləri ilə görüşən Prezident İlham Əliyev qeyd edib ki, bu cür pilot layihələr davam etdiriləcək. Hazırda şəhərimizin müxtəlif yerlərində buna bənzər 49 layihə icra edilir. Bu binaların tikintisi artıq gedir. Bəzi binaların tikintisi ilə bağlı sakinlərlə danışıqlar aparılır. Belə layihələrin icrasının əsas məqsədi insanları gözəl mənzillərlə təmin etməkdir: «Bu tipli layihələr ölkəmizdə geniş vüsət almalıdır. Həm Bakıda, həm bütün şəhər və rayonlarımızda, harada ki, qəzalı binalar var, biz bütün firmaları, iş adamlarını oraya dəvət edirik. Yerli icra orqanları onlara bütün şəraiti yaratmalıdırlar ki, bu işə daha da həvəslə qoşulsunlar. Beləliklə, qısa müddətdə, bir neçə il ərzində ölkəmizdə bir dənə də qəzalı vəziyyətdə bina olmamalıdır. Bu, həm insanlar üçün lazımdır, həm də ölkə iqtisadiyyatı, iş adamları xeyir götürəcək. Yəni bu, bir ümumxalq hərəkatı olmalıdır».

## Azərbaycan dövləti İKT sahəsində böyük uğurlara imza atıb

Prezident İlham Əliyev noyabrın 29-da Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Jaonu qəbul edib. Houlin Jao Bakıda keçirilən XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları («Bakutel-2016») sərgi və konfransının əhəmiyyətini vurğulayaraq, builki tədbirdə daha çox ölkənin öz stendləri ilə təmsil olunduğunu və yeni şirkətlərin iştirak etdiyini bildirib və bunu ölkəmizə olan marağın göstəricisi kimi dəyərləndirib. Houlin Jao Prezident İlham Əliyevin informasiya-kommunikasiya texnologiyaları sahəsinə verdiyi böyük dəstəyi vurğulayaraq, bu sahədə Azərbaycanın çoxsaylı tərəfdaşlarının olduğunu deyib.

Prezident İlham Əliyev informasiya-kommunikasiya texnologiyaları sahəsində artıq yaxşı nəticələrin əldə edildiyini bildirib, ölkəmizdə keçirilən Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransının artıq yaxşı bir ənənəyə çevrildiyini, bu tədbirin regionda bu tipli yeganə sərgi və konfrans olduğunu məmnunluqla qeyd edib. Dövlətimizin başçısı İKT sahəsinə verdiyi dəstəyə görə Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibinə təşəkkürünü bildirərək, onunla görüşün birgə əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb.

## Təhsil və elmlə bağlı əlaqələr tarixi ənənələrə söykənir

Noyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının təhsil və elm naziri Olqa Vasilyevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Rusiyalı qonağın ölkəmizə səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirən dövlətimizin başçısı təhsil və elm sahələrində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi üçün çoxlu mövzuların olduğunu vurğulayıb, ikitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Təhsil sahəsində əlaqələrin ənənəvi xarakter daşıdığına toxunan dövlətimizin başçısı bildirib ki, çox mühüm olan odur ki, ötən 25 il ərzində ölkələrimiz bu ənənələri nəinki qoruyub, hətta daha da möhkəmləndirib. Rusiya Federasiyasının tədris ocaqlarında azərbaycanlı tələbələrin təhsil aldıqlarını qeyd edən Prezident İlham Əliyev artıq respublikamızda da Rusiya ali məktəblərinin təhsilini almaq imkanı olduğunu vurğulayıb, qonşu ölkənin iki ali təhsil müəssisəsinin filiallarının Azərbaycanda uğurla fəaliyyət göstərməsinin önəmini qeyd edib.

Rusiya Federasiyasının təhsil və elm naziri Olqa Vasilyeva təhsil sahəsində ənənəvi əməkdaşlığımızın hazırda da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb, Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenev adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filiallarının uğurla fəaliyyət göstərdiyini, rus dilinin inkişafını ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdıran faktorlardan biri kimi dəyərləndirib. Rusiyalı nazir qeyd edib ki, Azərbaycanda rus dilində təhsil aparılan məktəblərdə oxuyan xeyli sayda şagirdlərin olduğu nəzərə alınaraq, məsələn, Lomonosov adına Moskva Dövlət Universitetinin tərkibində filoloji qrupun açılması təklif olunur.

Görüşdə Azərbaycanda rus dilinin və Rusiya Federasiyasında azərbaycanlıların sıx yaşadıqları ərazilərdə Azərbaycan dilinin tədrisinə texniki dəstək göstərilməsinin vacibliyi qeyd olunub.

BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ SİYƏZƏNDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB 2

DÖVLƏT BÜDCƏSİ HAQQINDA QANUN LAYİHƏSİNƏ MÜSBƏT RƏY VERİLİB 3

VERGİ ÖDƏYİCİLƏRİ İLƏ İNTERAKTİV MÜNASİBƏT FƏALLAŞDIRILIR 4

VERGİ ORQANLARINDAN ŞİKAYƏT VERİLMƏSİ QAYDALARI DƏYİŞDİRİLİR 5

# Vergilər naziri Fazil Məmmədov Siyəzəndə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

Noyabr ayının 25-də vergilər naziri Fazil Məmmədov Siyəzəndə Sumqayıt şəhəri, Abşeron, Siyəzən, Xızı və Şabran rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.



# Açıq hərracda 19 dövlət əmlakı özəlləşdirilib

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən noyabrın 29-da keçirilmiş növbəti açıq hərracda 19 dövlət əmlakı özəlləşdirilib. Komitənin mətbuat xidmətindən verilən məlumata görə, budəfəki hərracın nəticəsinə əsasən 6 kiçik dövlət müəssisəsi, 3 istifadəsiz qeyri-yaşayış sahəsi, 2 səhmdar cəmiyyəti və 8 nəqliyyat vasitəsi xüsusi mülkiyyətə verilib.

Hərrac günü prosesi əyani görmək istəyən vətəndaşlar və media nümayəndələri hərrac məkanına gəlib və gedişatı izləyiblər. Monitorlar vasitəsilə hərraca çıxarılmış hər bir əmlak barədə qısa məlumat verilib. Həmçinin canlı bağlantı sayəsində regionlar üzrə davam edən hərraclar da izlənilib.

Bir istifadəsiz qeyri-yaşayış sahəsi və bir nəqliyyat vasitəsi üzrə hərrac rəqabətli şəraitdə keçib. Özəlləşdirilmiş kiçik dövlət müəssisələrinin 3-ü paytaxtda, 1-i Gəncədə, 2-si Tovuzda, qeyri-yaşayış sahələrinin 1-i Bakıda, 2-si isə Göyçayda yerləşir. Hərracda təklif olunan ən yüksək qiymət Gəncə şəhərindəki «Sünbül» kafesi və Tovuz rayonundakı Tara bazasının anbar binası üzrə qeydə alınıb. Belə ki, bu əmlaklar müvafiq olaraq 100 min və 68 min manata satılıb. Paytaxın Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən «Elnur» kafesinə 40 min manata, Sabunçu rayonu, Bakıxanov qəsəbəsindəki qeyri-yaşayış sahəsi isə 25 min manata özəlləşdirilib. Qeyd edək ki, paytaxt və regionlarda belə kiçik müəssisə və obyektlərin özəlləşdirilməsi ölkədə kiçik və orta sahibkarlığın qurulmasına, biznes mühitinin canlanmasına əlverişli şərait yaradır. Hərracda satılmış 2 iri müəssisə sənaye və aqrar sahələrə aiddir. Belə ki, «Metalqab» və «Zaqatala Kəndkimya» Səhmdar Cəmiyyətlərinin özəlləşdirilmədən sonra yeni sərmayə yatırımı nəticəsində fəaliyyətini daha səmərəli və kompleks şəkildə bərpa edəcək, sənaye və aqrar sektorun inkişafına öz təsirini göstərəcək.

**Özəlləşdirilmiş kiçik dövlət müəssisələrinin 3-ü paytaxtda, 1-i Gəncədə, 2-si Tovuzda; qeyri-yaşayış sahələrinin 1-i Bakıda, 2-si isə Göyçayda yerləşir**

Qeyd edək ki, hərrac nəticəsində dövlət büdcəsinə 0,5 milyon manata yaxın vəsait köçürüləcək. Komitə tərəfindən növbəti hərrac dekabrın 6-na təyin olunub. Hərraca çıxarılan 100 əmlakdan 26-sı səhmdar cəmiyyəti, 50-si kiçik dövlət müəssisə və obyekti, 24-ü nəqliyyat vasitəsidir. Hərraca torpaq sahəsi ilə birgə çıxarılan kiçik dövlət müəssisələri sırasında ən yüksək hərrac qiymətinə təklif olunan dövlət əmlakları Balakəndə yerləşən əmlak kompleksi və paytaxtın Nizami rayonunda yerləşən «İstehsalat Texnoloji Komplektləşdirmə İdarəsi» MMC-dir. Belə ki, bu əmlaklar müvafiq olaraq 1 milyon 100 min manat və 1 milyon 75 min manat ilkin satış qiyməti ilə təklif olunur. Hərrac günü prosesi əyani müşahidə etmək istəyən istənilən vətəndaş həmin gün komitənin İnformasiya Texnologiyaları Mərkəzinə (Heydər Əliyev prospekti, 139 A) gələ bilər. Qeyd edək ki, hərracda iştirak edən, lakin qalib olmayan sifarişçi hərrac bitdikdən sonra 10 gün müddətində komitəyə müraciət edib hərracdan qabaq ödədiyi behi geri ala bilər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2016-cı ilin yanvar-oktyabr aylarında xarici müəssisə və təşkilatlar tərəfindən Azərbaycanda əsas kapitala **7 milyard 22,9 milyon** manat vəsait yönəldilib.
- Cari ilin on ayında əsas kapitala yönəldilmiş ümumi vəsaitin **66,9%**-i sənayeyə, **16,2%**-i tikinti, **9,1%**-i nəqliyyat və anbar təsərrüfatı sahələrinə, **1,7%**-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, **1,5%**-i dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat, hər birində **0,9%** olmaqla informasiya və rabitəyə, təhsilə istiqamətləndirilib.
- Yanvar-oktyabr aylarında toxuculuq sənayesi, geyim, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı sahələrində **112,4 milyon** manat dəyərində məhsul istehsal edilib.
- Bu il dekabrın 27-də **115** dövlət əmlakı özəlləşdirməyə çıxarılacaq.
- Azərbaycanda bu il **78 min** tondan çox pambıq tədarük edilib. Ötən ilin eyni dövründə pambıq tədarükü **34 min** tondan çox olub ki, bu da illik müqayisədə **2,3** dəfə artım deməkdir.
- Bu ilin ötən on ayında Dövlət Əmək Müfəttişliyi Xidməti **787,3 min** manat məbləğində gecikdirilmiş sosial xarakterli ödənişlərin işəgötürənlər tərəfindən işçilərə ödənilməsini təmin edib.
- 2016-cı ilin yanvar-oktyabr aylarında dəmir yolu nəqliyyatı ilə **12,5 milyon** ton yük, **1580,8 min** sərnişin daşınıb.
- Azərbaycan Türkiyəyə qaz ixracını **13%**-dən çox artırıb.
- Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən Azərbaycan Mərkəzi Bankının hər birinin nominal dəyəri **100** manat olan **750.000** ədəd dövlət qısamüddətli notları dövlət qeydiyyatına alınıb.

# Vergilər Nazirliyində görüş keçirilib



Noyabrın 29-da vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Fazil Məmmədov son illər ölkəmizdə bütün sahələrdə əldə olunmuş uğurlar barədə məlumat verərək, onların əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını bildirib. Ölkədə aparılan islahatlar, Azərbaycan iqtisadiyyatının xarici təsirlərə dayanıqlılığı, vergi sistemində aparılan modernləşmə prosesi, texnoloji imkanların genişləndirilməsi barədə qonaqlara məlumat verən nazir vergi inzibatçılığı və elektron hökumət quruculuğu istiqamətində əldə edilmiş nailiyyətləri xüsusi olaraq vurğulayıb. Milli vergi sisteminin təkmilləşdirilməsi prosesinin davamlı olduğunu diqqətə çatdıran F.Məmmədov Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli Sərəncamı barədə də qonağa məlumat verib. Qeyd edilib ki, islahatların əsas məqsədi ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlar üçün daha əlverişli şərtlərin yaradılması ilə onların hüquqlarının genişləndirilməsi, vergitutma bazasının təkmilləşdirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılmasından ibarətdir.

Vergilər naziri Azərbaycan və Böyük Britaniya arasında işgüzar münasibətlərin ildən-ilə inkişaf etdiyini, son illər bu ölkələrin vergi xidmətləri arasında əməkdaşlığın, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin müsbət nəticələr verdiyini, mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini qeyd edib.

Baronessa Nikolson yeni iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və ixrac imkanlarının artırılması istiqamətində hökumətin atdığı addımları, vergi sisteminin modernləşdirilməsi və innovasiyaların dəstəklənməsində vergilərin stimullaşdırıcı rolunun artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirib. Azərbaycan ilə əməkdaşlığa toxunan qonaq ölkəmizin müvafiq maliyyə qurumları, o cümlədən banklar və fond birjası ilə əlaqələrin yaradıldığını qeyd edərək, ölkəsinin Azərbaycanla tam tərəfdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında iqtisadi, enerji, yüksək texnologiyalar, kənd təsərrüfatı, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Transfer qiymətləndirmə ilə bağlı layihə həyata keçiriləcək

*Bu, şəffaflığın və vergi daxilolmalarının həcminin artmasını təmin edəcək*

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi» haqqında sərəncamında nəzərdə tutulan əsas məsələlərdən biri beynəlxalq təcrübə nəzərə alınmaqla vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması hallarının aradan qaldırılması məqsədilə qanunvericilik bazasının yaradılmasıdır. Vergilər Nazirliyi bu vəzifənin yerinə yetirilməsi ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirib, beynəlxalq təcrübəni mənimsəyib. Hazırda «Transfer Pricing» (transfer qiymətləndirmə) tvinninq layihəsinin icrasına başlamaq məqsədilə hüquqi-texniki məsələlər üzərində iş gedir. 2017-ci ilin yanvar ayından tətbiqinə başlanılması nəzərdə tutulan yeni layihə çərçivəsində transfer qiymətləndirmə ilə bağlı xarici ölkələrlə qarşılıqlı təcrübə mübadiləsi aparılır.

Transmilli şirkətlərin xarici iqtisadi fəaliyyətinin genişləndirilməsi onların vergiyə cəlb olunması ilə bağlı bir çox problemlərin həllini tənzimləyən qanunvericilik bazasının yaradılmasını tələb edir. Yerli və xarici şirkətlərin müxtəlif vergitutma normalarına malik ölkələrdə fəaliyyət göstərməsi onların apardıqları kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərini artırır.

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi, BMT-nin Vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsinin üzvü Ülvi Yusifov bildirib ki, son illərdə dünya iqtisadiyyatının qloballaşması və milli iqtisadiyyatların inteqrasiyası dünya ticarətində şirkətlərin rolunu kifayət qədər artırıb. Şirkətlərin böyüməsi vergi orqanlarına həmin şirkətlərin gəlir və xərclərini düzgün müəyyən etməkdə, eləcə də vergitutma ilə bağlı digər sahələrdə bəzi problemlər yaradır. Bir çox şirkətlər aparılan əməliyyatları əvvəlcədən planlaşdırır və müxtəlif sxemlərdən istifadə edərək vergidən yayınırlar. Bu gün vergi orqanlarının vergidən yayınma ilə mübarizə strategiyasının əsas istiqamətlərindən biri transfer qiymətlərinə nəzarət mexanizmlərinin tətbiqi ilə bağlıdır və bu sahədə yeni mexanizmlərə ehtiyac var.

> Vergi orqanlarının vergidən yayınma ilə mübarizə strategiyasının əsas istiqamətlərindən biri transfer qiymətlərinə nəzarət mexanizmlərinin tətbiqi ilə bağlıdır

Transfer qiymətləndirmədən istifadə etməklə vergidən yayınma hallarına Avropanın, demək olar ki, bütün ölkələrində rast gəlinir. Həmin dövlətlərdə bununla bağlı mübarizədə müxtəlif metodlardan istifadə olunur. Transfer qiymətləndirmə qarşılıqlı surətdə asılı olan şəxslər arasında, xüsusilə də törəmə şirkətlərlə baş ofis və yaxud baş ofisin digər filial və nümayəndəlikləri arasında malların və xidmətlərin təqdim edilməsi ilə bağlı əməliyyatlarda qiymətlərin adi bazar şəraitində formalaşan qiymətlərdən fərqli müəyyənləşdirilir: «Müstəqil müəssisələr arasında əməliyyatlar aparılan zaman onların razılaşdırdıqları şərtlər və qiymətlər müstəqil surətdə bazar amillərinin təsiri altında formalaşır. Qarşılıqlı surətdə asılı olan şəxslər arasında əməliyyatlar aparılan zaman isə qiymətin əmələ gəlməsinə təsir edən amillər təkcə sərbəst bazar amilləri deyil, əksər hallarda bu əməliyyatların qiymətlərinə ümumi mənfəətin artırılması və bütün qrupun yekun vergisinin minimallaşdırılması məqsədi də təsir göstərir. Vergi orqanları tərəfindən transfer qiymətlərin müəyyənləşdirilməsinin məqsədi də qarşılıqlı əlaqəli müəssisələr arasında aparılan əməliyyatlarda formalaşan qiymətlərin müstəqil müəssisələr arasında analoji şərtlərdə formalaşa biləcək bazar qiymətlərinə uyğunluğunun təmin olunması və hesablanmış transfer qiymətləri əsas götürülməklə vergilərin hesablanması və ya bəyan edilmiş vergi məbləğlərinə düzəliş olunmasından ibarətdir. Dünyada mövcud olan transfer qiymətin əmələ gəlməsi sistemlərinin əksəriyyətinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) standartları və qaydalarına əsaslanmasına baxmayaraq, bu prinsiplərdən kənarlaşmalar da mövcuddur».

Ü.Yusifovun sözlərinə görə, Vergilər Nazirliyi tərəfindən müvafiq sahədə beynəlxalq təcrübə mütəmadi olaraq öyrənilir. Nazirlik tərəfindən hazırlanmış «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün «Strateji Plan»da transfer qiymətlərin tənzimlənməsi sahəsində qanunvericilik bazasının və inzibati nəzarət mexanizmlərinin yaradılması» nəzərdə tutulub. Ötən müddət ərzində transfer qiymətləndirmə üzrə elmi seminarlar təşkil olunub, xarici ölkələrin mütəxəssislərinin iştirakı ilə beynəlxalq təcrübədə tətbiq olunan mexanizmlər müzakirə edilib. Ən qabaqcıl və məqsədəmüvafiq hesab edilən təcrübələrin Azərbaycanda tətbiqi istiqamətində işlər aparılır və bununla bağlı transfer qiymətin əmələ gəlməsi üzrə qanunvercilik və inzibatçılıq prosedurlarının yaradılması üçün Avropa İttifaqının tvinninq yardım aləti çərçivəsində müvafiq layihənin həyata keçirilməsi barədə razılıq əldə olunub.

**Elbrus CƏFƏRLİ**

# Elektron ticarətə vergi nəzarəti gücləndirilir

Azərbaycanda «Elektron ticarət haqqında» Qanun 2005-ci ildə qəbul edilsə də, o vaxt internet üzərindən ödəmə sistemi olmadığından, bu sahədə ilk addımlar 2008-ci ildə atılıb. «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə tədbirlər planında ölkədə elektron ticarətin yaradılması sahəsində işlərin intensivləşdirilməsi barədə İqtisadi İnkişaf Nazirliyinə tapşırıqlar verilib. Tapşırığın icrasını təmin etmək üçün sahibkarların, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsalçılarının sərbəst bazara çıxışının dəstəklənməsi məqsədilə Almaniyanın Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) «Özəl sektora dəstək proqramı» çərçivəsində elektron ticarətlə bağlı veb portal yaradılıb.

Elektron xidmətlər sahəsində təcrübəsi olan «GoldenPay» şirkətinin rəhbəri Fərid İsmayılzadənin sözlərinə görə, son illər Azərbaycanda inkişaf tendensiyası və müasir texnologiyalardan istifadənin hüdudlarının genişlənməsi bir çox xidmətlər kimi onlayn ticarətə də tələbi artırıb və bu sahədə hər il müsbət dinamika müşahidə olunmaqdadır. Azərbaycanda əhalinin bu üsulla alış-verişə az meyl etməsinin səbəbini əksər insanların hələ də ödədikləri pulun tam şəkildə həmin şirkətə çatacağına inamının az olması ilə izah edilir, digər amil isə satılan mallara verilən zəmanətlə bağlıdır. Məsələn, vətəndaş və ya alıcı elektron ticarətdən istifadə etməklə hansısa məhsulu alırsa və həmin məhsul keyfiyyətli deyilsə, onun geri qaytarılma mexanizmi, demək olar ki, yoxdur. Çünki elektron ticarətlə məşğul olanların bəzilərinin konkret ofisi yoxdur, bu səbəbdən də geri qaytarılma prosesi müşkülə çevrilir. Onların tapılması, malın geri qaytarılması və malın keyfiyyətsiz olduğunun sübut edilməsi xeyli vaxt tələb edir.

Bununla belə, ölkəmizdə elektron ticarətə maraq artır və bu sahədə vergitutmanın təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasında rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunması da öz əksini tapıb. Ölkəmizdə internet istifadəçilərinin sayının artması, nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər, internet vasitəsilə alış-veriş edən əhalinin sayının gündən-günə çoxalması elektron ticarətin vergiyə cəlb edilməsi üçün böyük potensial olduğunu göstərir. Buna görə də elektron ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin uçotu istehlakçıların hüquqlarının qorunmasına müsbət təsirini göstərəcək.

Təcrübə göstərir ki, bir çox hallarda elektron ticarət əməliyyatları həyata keçirən şəxsin, yəni satıcının bir dövlətin, alıcının isə digər dövlətin rezidenti olması, serverin üçüncü bir dövlətdə yerləşməsi vergiyə cəlb edilmədə problemlər yaradır. Buna görə də vergi orqanlarının qarşısında duran əsas vəzifə elektron ticarət əməliyyatları həyata keçirən şəxsin rezidentliyinin və elektron ticarət əməliyyatlarının sənədləşməsinin aparılmasının təmin edilməsidir. Belə vergi ödəyicilərinin uçota alınması elektron ticarət sahəsində satıcı ilə alıcı arasındakı münasibətlərin tənzimlənməsinə şərait yaradır. Elektron ticarət həyata keçirən bir sıra şəxslər hesab edirlər ki, onların fəaliyyəti virtual aləmdə olduğu üçün vergiləri ödəməyə bilərlər. Əslində isə internet, sadəcə, satıcı ilə alıcı arasında əlaqə növüdür və aparılan sövdələşmələrin nəticəsi üzrə yaranan vergi öhdəliklərini ləğv edə bilməz. Ölkəmizdə biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktları mövcuddur. «Elektron sənəd, elektron imza haqqında», «Elektron ticarət haqqında» qanunlara, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə elektron ticarətlə bağlı müddəalar daxil edilib.

Hazırda elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır. Vergilər Nazirliyinin mütəxəssisləri elektron ticarətin vergiyə cəlb olunmasının daha səmərəli mexanizminin yaradılması üçün qanunvericiliyin və informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində ciddi işlər görürlər. Bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi üzrə müvafiq işlər görülür, ayr-ayrı Avropa ölkələrinin təcrübələri araşdırılır. Elektron ticarət üzrə vergi nəzarətinin təşkili istiqamətində qarşıda duran vəzifələrdən biri ölkədə kommersiya məqsədləri üçün yaradılan bütün internet resurslarının vergi uçotuna alınması və onların gəlirlərinin vergi qanunvericiliyinə uyğun bəyan edilməsinin təmin olunmasıdır. Fəaliyyətin bu növü ilə məşğul olan şəxslər tərəfindən istifadə olunan veb səhifələrin müəyyən edilməsi ilə vergi orqanında uçotun yoxlanılması həyata keçiriləcəkdir.

**Rəşad SADIQOV**



Ölkəmizdə internet istifadəçilərinin sayının artması, nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər, internet vasitəsilə alış-veriş edən əhalinin sayının gündən-günə çoxalması elektron ticarətin vergiyə cəlb edilməsi üçün böyük potensial olduğunu göstərir

# Vergi orqanlarına məlumat göndərilməli olan icazələrin siyahısı təsdiqlənib

Nazirlər Kabineti «Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı»nı təsdiq edib. Siyahıya 47 icazə daxil edilib:

- Dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və videomaterialların, mal (məmulatların) və dini məzmunlu digər məlumat materiallarının istehsalına, idxalına, ixracına və yayılmasına razılıq.
- Dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və videomaterialların, mal (məmulatların) və dini məzmunlu digər məlumat materiallarının satışı ilə bağlı ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılmasına razılıq.
- Dəniz nəqliyyatı sahəsində beynəlxalq müqavilələrə uyğun olaraq verilən sənədlər.
- Gəmi agenti xidmətlərinin göstərilməsi üçün sertifikat.
- «İxrac nəzarəti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə.
- İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamə.
- İxrac məqsədli neft-qaz fəaliyyətinə görə güzəştləri əldə etmək üçün Azərbaycan Respublikasına idxal ediləcək avadanlıq və materialların siyahısının (idxal siyahısının) qeydə alınması.
- Avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsi üçün verilən pasport.
- Beynəlxalq avtomobil daşımalarını həyata keçirən xarici dövlətlərin nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisinə giriş-çıxış, yüklənmə və tranzit keçid hüququnu müəyyənləşdirən «İcazə» blankı.
- Azərbaycan Respublikası ilə beynəlxalq avtomobil daşımaları haqqında beynəlxalq müqavilə bağlamış xarici ölkələrin ərazisində beynəlxalq avtomobil daşımalarını yerinə yetirmək üçün avtodaşıyıcılara verilən xarici ölkələrin «İcazə» blankı.
- Azərbaycan Respublikası ərazisində avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicilərinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün verilən «Fərqlənmə nişanı».
- Vergi ödəyicilərinin öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünəməxsus yüklərin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri üçün verilən «Xüsusi fərqlənmə nişanı».
- Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə.
- Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılmasına razılıq.
- Yeyinti məhsullarının gigiyenik sertifikatı.
- Dərman vasitəsinin dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsi.
- Dərman vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxalına icazə.
- Səlahiyyətli iqtisadi operator statusunun verilməsi haqqında qərar.
- Rüsumsuz ticarət mağazasının yaradılmasına icazə.
- Elektrik enerjisinin nəqlinə icazə.
- Elektrik enerjisinin paylanmasına icazə.
- Elektrik enerjisinin ixrac və idxal edilməsinə icazə.
- Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktı.
- Qazın istehsalına və təbii qazın emalına icazə.
- Qazın nəqli üçün icazə.
- Qazın paylanmasına icazə.
- Yeraltı qaz anbarlarının işlənməsi, tikilməsi və istismarına icazə.
- Sənaye qaz qurğusunun istismarına icazə.
- Neft və qaz yataqlarının kəşfiyyatına icazə.
- Neft və qaz yataqlarının işlənməsi və hasilatına icazə.
- Neft və neft məhsullarının emalına icazə.
- Neft və neft məhsullarının boru kəmərləri vasitəsilə nəqlinə icazə.
- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazəsi.
- İdman-mərc oyunlarının həyata keçirilməsi məqsədi ilə hüquqi şəxsin akkreditasiyası haqqında qərar.
- Xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsi.
- Qiymətli metallardan hazırlanmış məhsulların, o cümlədən zərgərlik və digər məişət məmulatlarının dövlət əyar damğası.
- Sənaye parkının qeydiyyat şəhadətnaməsi.
- Texnologiyalar parkının qeydiyyat şəhadətnaməsi.
- Texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnaməsi.
- Sənaye, yaxud texnologiyalar parklarının rezidenti, idarəedici təşkilatı və operatoru, habelə investisiya təşviqi sənədi almış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənəd.
- İnvestisiya təşviqi sənədi.
- Açıq məkanda reklamın yerləşdirilməsinə icazə.
- Ümumi istifadədə olan avtomobil yolları istisna olmaqla, avtomobil yollarının qorunma (mühafizə) zolağında sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərlə bağlanılan müqavilə.
- Tikintiyə icazə.
- Tikinti obyektinin istismarına icazə.
- Audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə verilən nəzarət markası.
- Səyyar (mövsümi) ticarət və xidmət yerlərinin müəyyən edilməsinə görə icazə.

# Dövlət büdcəsi haqqında qanun layihəsinə müsbət rəy verilib

Hesablama Palatası «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» qanun layihəsinə verdiyi rəydə qeyd olunub ki, təqdim edilmiş «Büdcə zərfi»nə əsasən, 2017-ci il dövlət büdcəsinin gəlirləri 15 milyard 955 milyon manat məbləğində olmaqla 2016-cı ilin müvafiq göstəricisi ilə müqayisədə 867 milyon manat və yaxud 5,2% az proqnozlaşdırılıb. 2017-ci ildə dövlət büdcəsi gəlirlərinin ÜDM-ə faiz nisbəti 26% və ya cari ilin müvafiq göstəricisindən 3,1 faiz bəndi az nəzərdə tutulub. Dövlət büdcəsinin gəlirlərinin qeyri-neft sektoru üzrə təklif olunan proqnozu 2015-ci ilin icrasından 821 milyon 882,1 min manat və ya 11,3%, 2016-cı ilin gözlənilən icrasından isə 503 milyon manat və ya 6,6% çoxdur. 2017-ci il üzrə qeyri-neft sektorundan proqnozlaşdırılan gəlirlərin ÜDM-ə nisbəti 13,2%, qeyri-neft sektoru ÜDM-nə qarşı isə 19,4% nəzərdə tutulub. Dövlət büdcəsinin qeyri-neft sahələrindən gəlirləri üzrə proqnozlaşdırılmış artım əsasən Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə təmin edilən gəlirlər üzrə, neft sektorundan gəlirlərin azalması isə Dövlət Neft Fondunun daxilolmaları hesabına nəzərdə tutulub.

Sənəddə «2016-2020-ci illər üzrə Azərbaycan Respublikasının əsas makroiqtisadi proqnoz göstəriciləri»nə əsasən tədiyyə balansı üzrə cari hesab balansının 2015-2016-cı illər ərzindəki mənfi davranışının 2017-ci ildən etibarən müsbətə doğru dəyişməsi proqnozlaşdırılıb. «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanun layihəsinə və büdcə zərfinə əlavə olunmuş müvafiq sənədlərə əsasən, dövlət büdcəsinin gəlirlərinin 45,2%-i və ya 7 milyard 210 milyon manatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinin, 13,8%-i və ya 2 milyard 200 milyon min manatı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin, 38,2%-i və ya 6 milyart 100 milyon manatı Dövlət Neft Fondunun, 2,8%-i və ya 445 milyon manatı isə digər mənbələrin payına düşüb. Vergilər Nazirliyi üzrə proqnozlaşdırılmış məbləğ 2016-cı ilin gözlənilən icrasına nisbətən 200 milyon manat və ya 2,9%, Gömrük Komitəsi üzrə 390 milyon manat və ya 21,5% çox, Dövlət Neft Fondu üzrə isə 1 milyard 515 milyon manat və ya 19,9% azdır.

Hesablama Palatasının təhlilləri göstərir ki, Dövlət Neft Fondundan transfertin məbləğinin azaldılması fondun ehtiyatlarının həcminə təsir göstərməyəcək.

Sənəddə bildirilib ki, 2017-ci il dövlət büdcəsinin yerli gəlirlərinin hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərinin və həmin şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsinin hesabına formalaşdırılması nəzərdə tutulub. Göstərilən bölgüyə uyğun növbəti il üzrə yerli gəlir və xərclərin tənzimlənməsi üçün mərkəzləşdirilmiş xərclərdən vəsaitlərin ayrılması nəzərdə tutulmayan inzibati ərazi vahidləri (Bakı şəhəri istisna olmaqla) 33 sayda, gəlirlərin yerli xərclərdən artıq olan hissəsinin mərkəzləşdirilmiş gəlirlərə aid edilən inzibati ərazi vahidləri (Bakı şəhəri istisna olmaqla) isə 28 sayda proqnozlaşdırılıb. Rəydə qeyd olunub ki, mərkəzləşdirilmiş xərclərdən vəsaitlər ayrılmayan inzibati ərazi vahidlərinin (Bakı şəhəri istisna olmaqla) sayının 2016-cı ilin gözlənilən icrasına nisbətən 5,5 dəfə artımla nəzərdə tutulması yerli xərclərin bütün şəhər və rayonlar səviyyəsində əhəmiyyətli azalması ilə əlaqədardır: «Növbəti il üçün regionların (Bakı şəhəri istisna olmaqla) gəlirləri 2015-ci ilin icrası ilə müqayisədə 15 milyon 948,5 min manat və ya 2,7% azalma ilə proqnozlaşdırılsa da, 2016-cı ilin gözlənilən icrasına nisbətən 10 milyon 91 min manat və ya 1,8% artımla nəzərdə tutulub. 2016-cı ilin gözlənilən icrasına nisbətən əsas artımlar Qusar rayonu üzrə 1 milyon 133 min manata və ya 22,2%-ə, Neftçala rayonu üzrə 1 milyon 083 min manata və ya 20,7%-ə, Salyan rayonu üzrə 2 milyon 589 min manata və ya 33,6%-ə, Biləsuvar rayonu üzrə 1 milyon 31 min manata və ya 23,4%-ə, İsmayıllı rayonu üzrə 1 milyon 20 min manata və ya 18,1%-ə, Qazax rayonu üzrə 2 milyon 652 min manata və ya 40,1%-ə, eləcə də Şəmkir rayonu üzrə 1 milyon 746 min manata və ya 16,2%-ə bərabərdir».

Sənəddə vurğulanıb ki, Hesablama Palatasının məlumat bazası üzrə məlumatların təhlili vergi növləri üzrə dövlət büdcəsinə olan borcun və artıqödəmə məbləğinin əsas hissəsinin real sektorun qeyri-neft mənbələri hesabına yarandığını göstərir. Rəydə qeyd olunub ki, «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» qanun layihəsinə və büdcə zərfinə əlavə olunmuş müvafiq sənədlərə əsasən, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə ödənilməsi təmin edilən vergi gəlirləri 8 milyard 559 milyon manat məbləğində proqnozlaşdırılıb ki, bu da 2016-cı ilin gözlənilən icrasına nisbətən 7% (563 milyon 1 min manat) çoxdur.

2017-ci il üçün dövlət büdcəsinin mənbələri




«Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» qanun layihəsində dövlət büdcəsinin xərcləri 16 milyard 600 milyon manat məbləğində olmaqla 2016-cı ilin proqnoz göstəricisi ilə müqayisədə 1 milyard 895 milyon manat və ya 10,2%, gözlənilən icra göstəricisi ilə isə 412,8 milyon manat və ya 2,4% az proqnozlaşdırılıb. Növbəti il üçün dövlət büdcəsinin xərclərinin ÜDM-də xüsusi çəkisinin 27% olması proqnozlaşdırılıb ki, bu da 2016-cı ilin müvafiq göstəricisi ilə müqayisədə 5 faiz bəndi azdır. Təqdim edilmiş məlumatlara görə, 2018-2020-ci illər üzrə də dövlət büdcəsi xərcləri azalma ilə nəzərdə tutulmuş və bu illər üzrə orta azalma tempinin 3,6% olması gözlənilir. Növbəti ildə 2016-cı illə müqayisədə dövlət büdcəsinin ümumi xərclərində funksional təsnifatın 7 bölməsi üzrə azalma, 5 bölməsi üzrə artım, 2 bölmə üzrə isə xüsusi çəkinin dəyişməz qalması gözlənilir. 2016-cı ildə olduğu kimi, 2017-ci ildə də dövlət büdcəsi xərclərində xüsusi çəkisi ən yüksək olan bölmə 17,1% olmaqla «Ümumi dövlət xidmətləri» bölməsinin payına düşür. Buna səbəb dövlət borcuna və öhdəliklərinə xidmət xərclərinin bu bölmədə proqnozlaşdırılmasıdır. Dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər «Ümumi dövlət xidmətləri» bölməsinin tərkibində 1 milyard 641 milyon 799,7 min manat məbləğində olmaqla bölmə üzrə xərclərin 57,7%-i səviyyəsində proqnozlaşdırılıb. Qeyd edək ki, bu məbləğ 2016-cı ilin gözlənilən icrası ilə müqayisədə 0,4% az olsa da, «Ümumi dövlət xidməti» bölməsində xüsusi çəkisinin 1,1 faiz bəndi artaraq 59%-ə çatacağı nəzərdə tutulub. Dövlət büdcəsi xərclərində dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclərin payının artımı da 1,1 faiz bəndi səviyyəsində olmaqla 10,7% təşkil edəcək. Dövlət büdcəsi xərclərinin funksional təsnifatı üzrə 2016-cı ilin gözlənilən icrası ilə müqayisədə növbəti ilə ən böyük artım «Müdafiə» bölməsində 28,9% və «Əsas bölmələrə aid edilməyən xidmətlər» bölməsində 26,5% olmaqla; nəzərəçarpacaq azalmalar isə «Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət», «İqtisadi fəaliyyət» və «Yanacaq və enerji» bölmələrində müvafiq olaraq 58,9%, 42,2% və 38,9% nəzərdə tutulub. Dövlətin funksiyalarının həyata keçirilməsi istiqamətlərini sosial siyasətin reallaşdırılması, real sektora dəstək, milli təhlükəsizliyin və müdafiə qabiliyyətinin gücləndirilməsi, məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanılması və digər tədbirlər üzrə qruplaşdırsaq, 2016-cı ilin proqnoz göstəriciləri ilə müqayisədə 2017-ci ilin dövlət büdcəsində müdafiə və hüquq mühafizə və digər tədbirlərlə bağlı xərclərin artımla, sosial siyasətin həyata keçirilməsi və real sektorun inkişafı ilə bağlı xərclərin isə azalma ilə nəzərdə tutulduğunu qeyd edə bilərik. 2017-ci il dövlət büdcəsi layihəsinə elm xərclərində ilk dəfə olaraq ştatdankənar işçilərin əməkhaqqı və əməyin ödənişi ilə bağlı sair ödənclər üçün vəsait proqnozlaşdırılıb ki, bu da büdcədənkənar xərclərdə nəzərdə tutulub.



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Mərc oyunları

***İdman oyunları ilə əlaqədar xarici internet səhifələri vasitəsilə təşkil edilən mərc oyunlarının Azərbaycanda fəaliyyəti qanuni hesab edilirmi?***

Azərbaycan Respublikasının «Bədən tərbiyəsi və idman haqqında» 30 iyun 2009-cu il tarixli 847-IIIQ nömrəli Qanununun 53-1.2-ci bəndinə əsasən, idman mərc oyunları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditasiya olunmuş hüquqi şəxs (idman mərc oyunlarının operatoru) tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli fərmanının 4-cü hissəsində qeyd edilmişdir ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən ölkədə idman mərc oyunlarının operatorunun məlumatı əsasında, idman mərc oyunlarının operatoru ilə müqavilə bağlamadan fəaliyyət göstərən idman mərc oyunlarının həm yerli, həm də xarici virtual satıcılarının internet portallarının və saytlarının ölkə ərazisində fəaliyyətinin qarşısının alınması üçün zəruri tədbirlər görülməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 avqust 2010-cu il tarixli 153 nömrəli qərarı ilə təsdiq edilmiş «İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları»nın 2.11.3-cü bəndinə görə, virtual satıcı operatorla bağlanmış müqaviləyə əsasən fəaliyyət göstərən və virtual şəraitdə (internet, mobil telefon şəbəkəsi və s. vasitələrlə) mərc oyunlarının iştirakçıları ilə operator arasındakı bütün əlaqələri mərkəzi mərc sisteminə bağlı olaraq təmin edən hüquqi şəxsdir.

**Göstərilənlərə əsasən:**

Azərbaycan Respublikasında idman mərc oyunları Gənclər və İdman Nazirliyi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditasiya olunmuş hüquqi şəxs (idman mərc oyunlarının operatoru) tərəfindən həyata keçirilir. Virtual mühitdə idman mərc oyunlarının təşkili yalnız mərc oyunlarının operatoru ilə bağlanmış müqaviləyə əsasən fəaliyyət göstərən və virtual şəraitdə (internet, mobil telefon şəbəkəsi və s. vasitələrlə) mərc oyunlarının iştirakçıları ilə operator arasındakı bütün əlaqələri mərkəzi mərc sisteminə bağlı olaraq təmin edən virtual satıcılar tərəfindən həyata keçirilir. Beləliklə, yalnız idman mərc oyunlarının operatoru ilə bağlanmış müqavilə əsasında fəaliyyət göstərən virtual satıcıların, internet portallarının və saytlarının Azərbaycan Respublikasındakı fəaliyyəti qanuni hesab edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Vergi ödəyiciləri ilə interaktiv münasibət fəallaşdırılır

Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin vergi ödəyiciləri, eləcə də vətəndaşlar tərəfindən necə qiymətləndirildiyini müəyyən etmək məqsədilə nazirliyin rəsmi internet saytında (www.taxes.gov.az) vaxtaşırı keçirilən sorğularla vergi ödəyicilərinin mövcud xidmətlərə münasibəti ilə yanaşı, xidmətlərdən istifadə intensivliyi də müəyyən edilir.

Bu günlərdə Vergilər Nazirliyinin rəsmi internet saytının «Sorğu» bölməsində yeni sorğuya start verilib. «Vergiləri necə ödəyirsiniz?» sorğusunda iştirak edəcək vergi ödəyiciləri onlara təklif olunan

- «Birbaşa bank hesabından köçürmə yolu ilə»;
- «Banka (poçta) getməklə»;
- «Ödəniş portalları»;
- «Ödəniş terminalları vasitəsilə».

Bəndlərindən birini seçməklə sorğuda iştirak edə bilərlər.

Bundan əvvəl vergi ödəyicilərinə «Vergi orqanlarına etdiyiniz müraciətlərə baxılması sizi qane edirmi?» sualı ilə müraciət edilmişdi. Ötən ilin iyulundan başlayaraq bir ildən artıq davam edən sorğuda iştirakçıların vergi orqanlarına etdikləri müraciətlərə vaxtında və obyektiv baxıldığını qeyd edərək, razı qaldıqlarını bildiriblər. Ümumiyyətlə, 2007-ci ildən indiyə kimi vergi ödəyicilərinə müxtəlif mövzularda suallar ünvanlanıb və nəticələrə əsasən deyə bilərik ki, vergi ödəyiciləri nazirlik tərəfindən göstərilən xidmətlərdən razıdırlar və yenilikləri müsbət qarşılayırlar. Məsələn, vergi ödəyicilərinin vergi məsələləri, o cümlədən vergi bəyannamələrinin hazırlanması və vergi orqanına göndərilməsi ilə bağlı hara müraciət etdikləri barədə sorğunun nəticəsinə görə, vergi ödəyiciləri Vergilər Nazirliyinin rəsmi internet saytına müraciət etməyə daha çox üstünlük verirlər. Sorğuda respondentlərə təklif edilən 6 variant üzrə ilk üçlüyə nazirliyin rəsmi internet saytı başçılıq edib. Sonrakı yerləri isə «Vergi ödəyicisinin qeydiyyatda olduğu vergi orqanı» və «195» Çağrı Mərkəzinin cavabları tutub.

Vergi ödəyicilərinə ünvanlanan suallardan biri də vergi ödəyicilərindən vergi orqanı tərəfindən göndərilən sənədlərin hara gəlməsini öyrənmək idi. Sorğunun nəticəsinə görə, respondentlərin vergi orqanı tərəfindən göndərilən sənədlərin İnternet Vergi İdarəsindəki fərdi elektron qutuya və e-mail ünvanlarına göndərilməsini istəyib. Keçirilən sorğularda İnternet Vergi İdarəsinin elektron qutusundan istifadə intensivliyi də araşdırılıb. Məlum olub ki, sorğuda iştirak edənlərin böyük əksəriyyəti (58,08%) elektron qutudan hər gün istifadə edir.




Ötən ilin iyulundan başlayaraq bir ildən artıq davam edən sorğuda iştirakçıların böyük əksəriyyəti vergi orqanlarına etdikləri müraciətlərə vaxtında və obyektiv baxıldığını qeyd edərək, razı qaldıqlarını bildiriblər

Vergilər Nazirliyinin saytının «Sorğu» bölməsində keçirilən sorğudan əlavə, saytda «Vergi ödəyicisinin səsi» mövzusunda anket sorğusu da keçirilir. Bu sorğuda iştirak edənlər Çağrı Mərkəzinin fəaliyyətini qiymətləndirirlər.

**Aytən NƏBİYEVA**

# Sahibkarlar üçün yeni maliyyələşdirmə ünvanı

Avropa İttifaqının Azərbaycanda maliyyələşdirəcəyi «Regional inkişaf proqramı» layihəsinin əsas məqsədi bölgələrin inkişafına dəstək vermək, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, iqtisadi aktivliyin yüksəldilməsində, gənclərin fəallığının və məşğulluğunun artırılmasında, eləcə də innovativ və perspektivli biznes sahələrinin inkişafında əhəmiyyətli rol oynamaqdır. İqtisadiyyat Nazirliyi ilə birgə həyata keçirilən layihə davamlı şəkildə bir neçə rayonu əhatə edəcək. Bu məqsədlə ilk olaraq Aran iqtisadi rayonu pilot region seçilib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, proqram ölkədə sahibkarlığın inkişafı və genişləndirilməsi, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi və sahibkarların hüquqlarının etibarlı müdafiəsi istiqamətində həyata keçirilən islahatların tərkib hissəsidir. Birgə əməkdaşlıq çərçivəsində sahibkarlıq subyektlərinin gəlir əldə etmək imkanlarının yaxşılaşdırılması, dövlət-sahibkar münasibətlərində institusional mexanizmlərin təkmilləşdirilməsi, tarazlı vergi, gömrük, pul-kredit, tarif siyasətinin həyata keçirilməsi, sahibkarların ixrac imkanlarının genişləndirilməsi üçün ixrac təşviqi siyasətinin davam etdirilməsi nəzərdə tutulur. Kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi və gücləndirilməsi üzrə səylərin dəstəklənməsi də bu siyasətin tərkib hissəsidir.

Layihə çərçivəsində əsas hədəflər bunlardır:

- kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi üçün işgüzar mühitin daha da yaxşılaşdırılması;
- investisiyaların qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi;
- regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi;
- regionlarda ailə təsərrüfatlarına dəstək tədbirlərinin gücləndirilməsi;
- xarici investisiyaların ixracyönümlü və rəqabət qabiliyyətli sahələrə yönəldilməsinin stimullaşdırılması;
- investisiyaların insan kapitalına və elmtutumlu layihələrə yönəldilməsi;
- dünyada uğurla tətbiq olunan modellərin (biznes-inkubatorlar, fermer təsərrüfatları, kooperasiyalar və s.) yaradılması.

Bildirilib ki, layihə qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirilməsi, keyfiyyətin yüksəldilməsi, ixracın artırılmasına səbəb olacaq.

Ailə Biznesinə Asan Dəstək mərkəzləri (ABAD) də bu siyasət çərçivəsində regional sahibkarlığa dəstək göstərəcək. Həmin mərkəzlərin əsas məqsədi kiçik və orta sahibkarlığı dəstəkləmək olduğundan, ailə təsərrüfatları üzrə istehsal, marketinq, satış və digər tədbirlərin həyata keçirilməsində yaxından iştirak edəcək.

Hazırda Azərbaycanın vergi sistemində aparılan islahatlar da əsasən kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılmasına yönəlib. Vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq, azad rəqabətin formalaşmasını təmin etmək məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi işləri həyata keçirilməkdədir. Bəzi sahələr üzrə güzəşt və imtiyazların tətbiqi, vergi dərəcələrinin diferensiallaşdırılması kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli stimul yardır.

**E. CƏFƏRLİ**

# İnvestisiyanın təşviqi ilə bağlı siyasət genişləndirilir

İqtisadiyyat Nazirliyi ölkədə investisiya təşviqi sənədinin verilməsinə başlandığı 2016-cı ilin aprel ayından indiyədək 71 layihə üzrə 900 milyon manat həcmində vəsaitin ayrılmasına razılıq verib. Nazirliyin Strateji planlaşdırma və proqnozlaşdırma şöbəsinin müdiri Yalçın Əzizov bildirib ki, bu layihələrin həyata keçirilməsi 5 mindən artıq yeni iş yerinin açılmasına imkan yaradacaq, ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına və stimullaşdırılmasına, sənaye istehsalının yüksəlməsinə, qeyri-neft sektorunun inkişafına, sahibkarların ixrac potensialının artmasına səbəb olacaq. Hazırda nazirlik tərəfindən daha 17 investisiya layihəsinə baxılır. İnvestisiyaların təşviqi ilə bağlı siyasət 2017-ci ildə də davam etdiriləcək və əlavə biznes sahələrinə vəsait ayrılması planlaşdırılır.

Şöbə müdirinin qeyd etdiyinə görə, investisiya təşviqi sənədi almış şəxslər bundan sonrakı dövrdə fəaliyyətlərini təqdim etdikləri layihənin tələblərinə uyğun şəkildə həyata keçirməli, sərmayələrin artırılması istiqamətində mühüm işlər görməlidirlər. Onların həyata keçirdikləri layihədə investisiyaların təşviqi sahəsində müsbət dəyişikliklər baş verməyəcəyi təqdirdə və ya layihədə göstərilən meyarlar pozulduğu halda, sənəd ləğv ediləcək.

İnvestisiya təşviqi sənədini almaq üçün sahibkarların təqdim etdikləri biznes-plana qeydiyyata alındığı tarixdən ən geci 7 iş günü müddətində baxılır və tələb edilən tələblərə uyğun olduqda, sahibkara təsdiqedici sənəd verilir. İqtisadiyyat Nazirliyi sənəd barədə məlumatları 3 iş günü müddətində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim edir. Sahibkarın təqdim etdiyi ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə təsdiqedici sənədin verilməsindən imtina olunur. Bununla yanaşı, sahibkara yenidən bu sənədi əldə etmək şansı verilir. Sahibkarın təsdiqedici sənədin verilməsi barədə ərizəsində aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldığı halda, onun yeni ərizə ilə müraciətinə müsbət baxıla bilər.

Y.Əzizov bildirib ki, regionlardan asılı olmayaraq investisiya təşviqi sənədi almış sahibkarların əldə etdikləri mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad edilib. Hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad edilməklə yanaşı, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə gömrük rüsumlarından da 7 il müddətinə azaddırlar.

Təşviq sənədi əldə etmək üçün təyin edilən minimum məbləğ paytaxt və rayonlardan asılı olaraq fərqləndirilir. Bu, Bakıda daha yüksək, regionlarda isə fərqli əmsallar üzrə aşağıdır: səbəb paytaxtda sərmayədarların daha çox cəmləşməsi, rayonlarda isə investisiya imkanlarının nisbətən məhdud olmasıdır.

> Gələn il sahibkarlara investisiya təşviqi sənədinin verilmə müddətinin azaldılması və prosedurların daha da asanlaşdırılması nəzərdə tutulur

Gələn il sahibkarlara investisiya təşviqi sənədinin verilmə müddətinin azaldılması və prosedurların daha da asanlaşdırılması nəzərdə tutulur. Dövlət başçısının bir müddət əvvəl imzaladığı «İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» fərmana dəyişikliklərdə təşviq sənədinə nəzarət səlahiyyətləri Nazirlər Kabinetindən alınaraq Prezident Administrasiyasına keçib, sənədin verilməsi isə İqtisadiyyat Nazirliyinə həvalə olunub. Bu sahəyə nəzarətin artırılması, operativliyin, çevikliyin, əhatəliliyin və şəffaflığın gücləndirilməsi əsas prinsiplər kimi müəyyən edilib.

**ELBRUS**

# Birgə əməkdaşlıq davamlı inkişafın gücləndirilməsinə yönəldilib

Birləşmiş Millətlər Təşkilatı (BMT) Azərbaycan hökuməti ilə bir sıra iqtisadi layihələrin həyata keçirilməsində iştirakını davam etdirəcək. Bu barədə açıqlama verən BMT-nin Avropa regionu üzrə İqtisadi Komissiyasının icraçı katibi Kristian Fris Baxa bildirib ki, BMT-nin bir sıra proqram və ixtisaslaşmış qurumları - İnkişaf Proqramı (UNDP), Sənaye İnkişaf Təşkilatı (UNIDO), Mərkəzi Asiya Ölkələri İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA), Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) çərçivəsində Azərbaycanda iqtisadi sahələr üzrə birgə layihələr həyata keçirir.

BMT-nin «Əməkdaşlıq vasitəsilə davamlı inkişaf məqsədlərinin həyata keçirilməsinin gücləndirilməsi» mövzusunda Gəncədə keçirilən İqtisadi Forumunda K.F.Baxa son bir ildə biznes mühitinin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm rol oynadığını qeyd edib. Azərbaycanda biznes fəaliyyətinin asanlaşmasına xidmət edən layihələrin həyata keçirilməsi, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, lisenziya və icazələrin sayının azaldılması, e-lisenziya sisteminin yaradılması, «bir pəncərə» prinsipi və sahibkarların işini yüngülləşdirən digər mütərəqqi mexanizmlərin tətbiqi yüksək qiymətləndirilib.

Qarşıdakı illərdə əməkdaşlığın əsas istiqamətləri insan kapitalının inkişafı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsullluqla mübarizə, qeyri-neft sektoruna dəstək, ətraf mühitə mənfi təsirin azaldılması, əhalinin keyfiyyətli səhiyyə, təhsil və sosial müdafiə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması və digər sahələri əhatə edəcək.

BMT ölkəmizlə bağlı bir sıra tövsiyələr də irəli sürüb. Azərbaycanda qarşıdakı illərdə əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması, səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin minimuma endirilməsi, həmçinin iqtisadiyyatın uğurlu diversifikasiyası, enerji gəlirlərinin səmərəli istifadə olunması, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması və bu qəbildən olan digər addımların atılması məqsədəuyğun hesab edilir. Bundan başqa, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin, o cümlədən əməkhaqlarının tənzimlənməsi, məşğulluğun inkişaf etdirilməsi də tövsiyə olunan amillər sırasındadır.

# «Bakutel-2016» beynəlxalq sərgi və konfransı işə başlayıb

Noyabrın 29-da Bakı Ekspo Mərkəzində informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi üzrə ən böyük ixtisaslaşmış tədbir - «Bakutel-2016» XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransı işə başlayıb. Sərgidə dünyanın 18 ölkəsindən 200-dək şirkət iştirak edir. İştirakçılar arasında aparıcı İKT şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distribüterləri də var. Sərgiyə ilk dəfə qatılan iştirakçılar arasında Fransanın «Vivaction», Rusiyanın «Balt-Energo» şirkətləri, Belarusun «Beltelecom» kimi dövlət strukturları, Xorvatiyanın «Banksoft», «Secom», «Span», Amerikanın «DELL EMC», Ukraynanın «MUK», Çinin «FEC» və «BBT Telecom» şirkətləri, eləcə də «CBC sport TV», «GSS» və digər yerli şirkətlər var.

Sərgi çərçivəsində İlk dəfə olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeli qurum və müəssisələri eyni milli pavilyonda məhsul və xidmətlərini, həyata keçirdiyi layihələri təqdim olunur. Stenddə telekommunikasiya, poçt, yüksək texnologiyalar, o cümlədən peyk, nanotexnologiyalar, «Elektron hökumət» və «Elektron imza» infrastrukturu, Data Mərkəzin «bulud» texnologiyası əsasında xidmətləri üzrə həyata keçirilən layihələr və əldə edilmiş ən son nailiyyətlər nümayiş olunur. Həmçinin, nazirliyin pavilyonunda rabitə, poçt, «elektron hökumət» sahələrində həyata keçirilmiş yeni layihələr, maraqlı həllərlə də tanış olmaq olar.

# Vergi orqanlarından şikayət verilməsi qaydaları dəyişdirilir

**Vergi Məcəlləsinin VI fəslinin 62-ci maddəsinə əsasən, hər bir vergi ödəyicisinin və ya başqa vəzifəli şəxsin vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək hüququ vardır.**

### Şikayətin edilməsi

Vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət qanunla müəyyən edilmiş qaydada yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə verilir. Şikayətin yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) verilməsi həmin şikayətin eyni zamanda və ya sonradan məhkəməyə verilməsini istisna etmir.

Vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) vergi ödəyicisi və ya başqa borclu şəxs tərəfindən öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 3 ay müddətində verilir.

Vergi ödəyicisi və ya başqa borclu şəxs üzrlü səbəbdən həmin müddəti buraxmışdırsa, yuxarı vergi orqanı və ya yuxarı vergi orqanının vəzifəli şəxsi tərəfindən şikayəti verən şəxsin ərizəsinə əsasən həmin müddət bərpa edilə bilər.

### Şikayətə baxılması

Vergi Məcəlləsinin 63-cü maddəsinə görə, vergi orqanında şikayətə baxılma prosesində vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən 30 gün müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir.

> Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət verə bilər

Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət verə bilər. Vergi ödəyicisinin şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququ vardır.

Vergi ödəyicisi və ya başqa borclu şəxs tərəfindən vergi orqanına (vəzifəli şəxsə) verilən şikayət, bu Məcəllənin 63.2-ci maddəsinin ikinci abzasında müəyyən edilən hallar istisna olunmaqla, şikayət edilən qərarın (aktın) və ya hərəkətin icrasını dayandırmır.

Şikayət edilən qərar (akt) və ya hərəkət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasını tam və ya qismən dayandıra bilər. Qərarın (aktın) və ya hərəkətin icrasının tam və ya qismən dayandırmaq barədə qərarı həmin aktı qəbul etmiş vergi orqanının rəhbəri və ya yuxarı vergi orqanı qəbul edir.

Hesablanmasından və ya tətbiq edilməsindən şikayət edilən verginin, faizlərin və ya maliyyə sanksiyasının məbləği hesablanmaya (tətbiq edilməyə) uyğun şəkildə ödənildiyi və bu şikayətin təmin edilməsi nəticəsində vergi, faizlər və ya maliyyə sanksiyası tamamilə və ya qismən ləğv edildiyi halda, vergi ödəyicisinin səhv tutulan məbləğlərə görə kompensasiya almaq və həmin məbləğlərdən faizlər almaq hüququ vardır.

Vergi orqanlarının qərarları (aktları), onların vəzifəli şəxslərinin hərəkətləri (hərəkətsizliyi) barəsində məhkəməyə verilmiş şikayətlərə (iddia ərizələrinə) Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

### Borclu şəxslərə qarşı qanun sərtləşdirilir

Vergilər Nazirliyinə borclu şəxslərə qarşı sərt tədbirlər görmək səlahiyyətinin verilməsi məsələsi gündəlikdədir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Vergi Məcəlləsinə dəyişiklik məsələsi müzakirə olunub. Komitə sədri Ziyad Səmədzadə bildirib ki, vergi ödəyicisi və ya başqa borclu şəxs tərəfindən vergi orqanına (vəzifəli şəxsə) edilən şikayət Azərbaycan qanunvericiliyinə uyğun olmadıqda, şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasını tam və ya qismən dayandıracaq.

**Fəxriyyə İKRAMQIZI**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Azərbaycanın 2017-ci il və gələn üç il üzrə iqtisadi-sosial inkişaf konsepsiyası»nın layihəsində qarşıdakı ildə ölkədə minimum əməkhaqqının, pensiyaların minimum məbləğinin və yaşayış minimumunun həddinin tədricən artırılması nəzərdə tutulur.

«Made in Azerbaijan» brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən noyabrın 27-dən 30-dək Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərinə növbəti ixrac missiyası təşkil olunub.

Bakıda keçirilən «Strateji tərəfdaşlıq 1520: Dünyanın dörd tərəfini birləşdirən Qafqaz regionu» biznes forumu çərçivəsində Azərbaycan Dəmir Yolları QSC ilə Ukrayna Dəmir Yolları təşkilatı arasında əməkdaşlıq memorandumu imzalanıb.

OPEC-in baş katibi Mohammad Sanusi Barkindo Azərbaycana səfər etmək niyyətində olduğunu açıqlayıb.

Ukrayna Azərbaycan və İrandan keçirməklə yüklərini Mərkəzi Asiya ölkələrinə çatdırmaq üçün «Şimal-Cənub» Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulmağı planlaşdırır.

Aşqabadda Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistanın sahəvi qurumlarının rəhbərləri «Xəzər dənizində naviqasiya təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında» Protokol imzalayıblar.

2016-cı ilin sonuna qədər «Transxəzər» beynəlxalq nəqliyyat marşrutunun «hüquqi şəxsləri birliyi» formasında beynəlxalq assosiasiyasının yaradılması planlaşdırılır.

Dekabrın 1-də baş tutacaq Azərbaycan-Türkiyə işgüzar görüşündə İKT sahəsində fəaliyyət göstərən şirkətlər ikitərəfli əməkdaşlıq haqqında danışıqlar aparacaq, startapların təqdimatı olacaq.

Azərbaycan Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən «Dünya sivilizasiyaları və yaradıcı turizm» mövzusunda beynəlxalq konqresdə təmsil olunur.

## Yaxın Şərq və Şimali Afrika dövlətləri vergi orqanlarının iclası

Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində keçirilmiş iclasda Azərbaycan, Bəhreyn, İran, İordaniya, Küveyt, Oman, Qətər, Səudiyyə Ərəbistanı və Türkiyə nümayəndələri iştirak ediblər. İclas zamanı neftdən asılı iqtisadiyyatlara malik region dövlətlərində neftin qiymətinin aşağı olduğu dövrdə iqtisadi durğunluqla mübarizədə vergi alətlərindən istifadə edilməsinin zəruriliyi və yeni inkişaf modellərinin vacibliyi vurğulanmışdır. İştirakçılara məruzəçilər tərəfindən Yaxın Şərq və Şimali Afrika ölkələrində vergi siyasəti, vergi inzibatçılığının avtomatlaşdırılması və icra keyfiyyətinin yaxşılaşdırılması, ƏDV siyasəti, transfer qiymətləndirilməsi və digər mövzularda təqdimatlar edilmişdir.

Tədbirdə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin şöbə rəisləri İlqar Əkbərli və Eldar Babazadə iştirak etmişlər.

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## Vergi mədəniyyətinin formalaşdırılması məqsədilə yeni mexanizmlər tətbiq olunmalıdır



Ruslan Atakişiyev,
*«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin rəhbəri*

Vergi islahatlarının aparıldığı sahələrdən biri də yoxlamaların tənzimlənməsidir. Yoxlamaların məqsəd və vəzifələrində əsas hədəf sahibkarlıq subyektlərində uçot və sənədləşmə işinin təkmilləşdirilməsi və könüllü ödəmə mədəniyyətinin formalaşdırılmasıdır. Hesab edirik ki, yoxlama sahibkarlıq subyektlərinə görə diferensial olmalı, sahibkarın yeni fəaliyyətə başlaması, kiçik, orta və iri ölçülü olması, iqtisadiyyatın prioritet sahələrində fəaliyyət göstərməsi, gənclər, əlillər və aztəminatlı ailələr tərəfindən qurulması nəzərə alınmalıdır.

Vergi mədəniyyətinin formalaşması sahəsində islahatların iki istiqamətdə aparılması daha məqsədəuyğundur:

- vergi yığımının təşkili üzrə mədəniyyətin formalaşması;
- vergi ödəmə mədəniyyətinin formalaşdırılması.

Vergi orqanları üçün vergiyığma mədəniyyəti üzrə etik davranış kodeksi təkmilləşdirilməli, onun tətbiqi məcburi xarakter daşımalı və qaydaları pozan məmurlar üçün cəza sistemi müəyyənləşdirilməlidir. Yoxlama vergi orqanı əməkdaşı ilə ödəyici arasında münasibətləri tənzimləyən davranış qaydaları kodeksində öz əksini tapmalıdır. Ödəyicilərdə könüllü vergiödəmə mədəniyyətinin formalaşdırılması üçün müxtəlif nominasiyaları özündə əks etdirən mükafatlandırma və reytinq sistemi təşkil olunmalı, ödəmə qabiliyyətinə görə fərqlənən ödəyicilər ictimaiyyət arasında təbliğ edilməlidir. KİV-lərdə könüllü vergiödəmə mədəniyyətinin formalaşması ilə bağlı mütəmadi olaraq sosial çarxların, maarifləndirici verilişlərin yayımlanmasını təşkil etmək zəruridir.

> Yoxlama vergi orqanı əməkdaşı ilə ödəyici arasında münasibətləri tənzimləyən davranış qaydaları kodeksində öz əksini tapmalıdır

Təklif etdiyimiz digər istiqamət vergi şəffaflığının təmin olunması və antikorrupsiya tədbirləri ilə bağlıdır:

- Vergi yığımı sahəsində şəffaflığın təmin edilməsi məqsədilə ödənişlər büdcə təsnifatına uyğun olmaqla müəssisənin rəsmi dövriyyəsinə əsasən hesablanmalı və bu ödənişlər şirkətin xərclərinə salınmalıdır;
- Regionlarda gəlirləri qeyri-müəyyən olan ödəyicilərin vergi yığımının şəffaf mexanizminin yaradılması istiqamətində təsirli tədbirlər həyata keçirilməlidir;
- Sahibkarlıq subyektləri antikorrupsiya sahəsində maarifləndirilməli, müasir informasiya ötürücülərindən yararlanmalıdır;
- Vəzifəsindən sui-istifadə edən vergi əməkdaşının müəyyənləşdirilməsi və onunla bağlı ölçü götürülməsi üçün əlaqədar təşkilatların məlumatlandırılması yolları izah olunmalıdır.

Vergi cərimələrinin tətbiqinin təkmilləşdirilməsi sahəsində də bəzi addımların atılmasına ehtiyac var. Cərimələr tətbiq olunmazdan əvvəl sahibkarlara xəbərdarlıq edilməli, cərimələrin yaranma səbəbləri, məbləği barədə müfəssəl məlumat verilməlidir. Cəriməyə səbəb olan halların aradan qaldırılması üçün sahibkarlara vaxt verilməsi də yaxşı olardı.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsinə də ehtiyac duyulur. Vergi Məcəlləsinin sahibkarlıq subyektlərinə birbaşa aidiyyəti olan maddələri şərh olunmalı, çoxmənalı və mücərrəd fikirlərdən qaçılmalıdır.

Vergi dərəcələri, ödəmələr sahəsində güzəştlər və islahatlarla bağlı bəzi tədbirlərin görülməsini vacib hesab edirik. Sadələşdirilmiş vergi ödəyicisi üzrə tətbiq olunan illik 200.000 manatlıq keçid dövriyyəsi artırılaraq 500.000 manata çatdırılmasını zəruri hesab edirik. Bunu aktuallaşdıran əsas amil ölkənin iqtisadi həyatında baş verən devalvasiyadır.

Yerli istehsalın stimullaşdırılması üçün Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən müəssisələr müvəqqəti olaraq ƏDV-dən azad edilə bilər. İstehsalda istifadə məqsədilə idxal olunan xammalın ƏDV və gömrük rüsumundan azad edilməsi isə istehsalın canlanmasına şərait yarada bilər.

## Vergi siyasəti vergi dərəcələrinin optimallaşdırılmasına istiqamətlənməlidir



Röyal İmanlı,
*maliyyə məsələləri üzrə mütəxəssis*

Ötən illərdə vergi dərəcələrinə bir sıra dəyişikliklər edilsə də, son 10 ildə bəzi vergi növləri dəyişməz olaraq qalır. Müasir iqtisadi şəraitə, baş verən dəyişikliklərə və sahibkarlığın stimullaşdırılması ilə bağlı həyata keçirilən siyasətə uyğun olaraq bəzi vergi dərəcələrinin dəyişdirilməsi, xüsusilə də ƏDV-nin diferensiallaşdırılması zərurəti yaranıb. Aparılan islahatlar vergi dərəcələrinin optimallaşdırılması və vergi yükünün azaldılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın stimullaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Hesab edirik ki, həyata keçirilən vergi siyasəti vergi güzəştlərindən daha çox vergi dərəcələrinin optimallaşdırılmasına istiqamətlənməlidir. İqtisadiyyatın inkişaf etdirilməsinə, sahibkarlığa stimul verilməsinə yönəldilən bu cür tədbirlər son nəticədə sahibkarların əlavə dəyər yaratmasına, gəlirlərin artımı hesabına büdcəyə vergi daxilolmalarının həcminin çoxalmasına səbəb olmalıdır. Bundan əlavə, vergi güzəştləri və azadolmalar məsələlərinə yenidən baxılması vacibdir. İqtisadi inkişafa xidmət edən, sahibkarlığa stimul verəcək sahələrin azadolmaları diqqətdə saxlanılmalı, əlavə dəyər yaratmayan, vergitutma bazasının yaxşılaşmasında rol oynamayan sahələrə isə güzəştlər edilməməlidir.

Vergi yükünün aşağı salınması və optimal vergi dərəcələrinin tətbiq olunması üçün bu məsələlərin nəzərə alınmasını təklif edirik:

- Diferensiallaşdırılmış əlavə dəyər vergisinin tətbiqi konkret və sahəvi olmalı, istehsal xarakterli sahələrə şamil edilməlidir;
- Daxili istehsalı artırmaq üçün idxal olunan əsas vəsaitlərin və xammalın növünə görə qruplaşdırılması əvəzinə, müəyyən müddət ərzində istehsal məqsədli bütün idxal mallarının vergi və rüsumdan azad edilməsi məqsədəuyğundur.

İslahatların ən diqqətçəkən məqamlarından biri pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin əlavə dəyər vergisinin obyektin satdığı malların satış qiyməti ilə malgöndərənlərə ödənilən qiymət arasındakı fərqdən, yəni ticarət əlavəsindən tutulmasına dair qanunvericiliyə dəyişikliklərin edilməsindən ibarətdir. Bununla yanaşı, topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsi də nəzərdə tutulur. Digər istiqamətlərdə vergi yükünün azaldılmasına yönəlmiş addımların atılması - gündəlik istehlak mallarının, xidmətlərin, əsas vəsaitlərin və s. müxtəlif dərəcələrlə vergiyə cəlb edilməsi aşağıdakı müsbət nəticələri verə bilər:

> Diferensiallaşdırılmış əlavə dəyər vergisinin tətbiqi istehsal xarakterli sahələrə şamil edilməlidir

- İstehlak mallarının satışının və həcminin artması sayəsində ƏDV üzrə daxilolmalar çoxalar;
- Mənfəətin artması və bununla da büdcəyə mədaxil ediləcək mənfəət vergisinin artması təmin olunar;
- İstehsalın stimullaşdırılması əlavə sahibkarlıq subyektlərinin yaranmasına və məşğulluğun artmasına səbəb olar, bu isə yeni istehsaldan vergilərin büdcəyə ödənilməsinə imkan verər.

Digər bir məqam manatın xarici valyutalar qarşısında dəyərinin itirməsi nəticəsində idxal mallarına tələbatın aşağı düşməsi və bazarda idxal mallarını əvəz edən istehsalın stimullaşdırılması ilə bağlıdır. Həmin malların daxildə istehsalına münbit şərait yaradılması üçün zəruri xammal və avadanlıqlar müəyyən müddətə vergi və rüsumlardan azad edilməlidir. Bunun üçün ölkəmizdə zəngin təcrübə mövcuddur: kənd təsərrüfatında tətbiq olunan vergi güzəştləri buna ən yaxşı nümunədir.

***Hazırladı:* E. CƏFƏRLİ**

# «Elektron ipoteka» neqativ halları aradan qaldıracaq

Dövlət başçısının 24 noyabr tarixli fərmanı ilə təsdiq edilmiş «Elektron ipoteka» sistemi haqqında Əsasnaməyə əsasən, elektron sistem «Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına ipoteka kreditləşməsi sahəsində elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, iştirakçıların elektron sistemə qoşulmuş informasiya sistemləri və ehtiyatlarından müvafiq sənədlər barədə informasiya əldə olunmasına xidmət edir.

Elektron sistemin tətbiqində məqsəd ipoteka kreditlərinə çıxış imkanlarının sadələşdirilməsi, ipoteka krediti almaq istəyən şəxslər üçün bərabər şərait yaradılması, müraciətlərə baxılma zamanı şəffaflığın və operativliyin təmin edilməsi, sərf olunan vaxta və xərclərə qənaət edilməsi və s. nail olmaqdır. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və inkişafı «Azərbaycan İpoteka Fondu» ASC tərəfindən təmin edilməklə «Elektron hökumət» portalına inteqrasiya olunacaq. İpoteka krediti almaq istəyən şəxslər elektron sistemə gücləndirilmiş elektron imza sertifikatı  və ya operator tərəfindən verilən kod-parol ilə daxil ola biləcəklər.

Elektron sistemdə ipoteka kreditinin alınması üçün tələb olunan sənədlərin siyahısı və şərtlər göstəriləcək, ipoteka krediti almaq istəyən şəxsin imkanı ilkin olaraq ipoteka kalkulyatoru vasitəsilə müəyyənləşdiriləcək, hər bir müvəkkil bank üzrə ödənilməli xidmət haqqının, habelə hər bir qiymətləndiricinin xidmətləri üzrə xidmət haqqının məbləğləri barədə məlumatlar yer alacaq. İpoteka krediti almaq istəyən şəxsin müvəkkil banka elektron müraciətinin real vaxt rejimində göndərilməsi, qeydiyyata alınması və münasib görüş vaxtının təyin edilməsi də elektron sistem vasitəsilə həyata keçiriləcək. Bununla yanaşı, müraciət edən şəxs üçün elektron kabinet yaradılacaq, onların müvəkkil bank tərəfindən vahid və ictimaiyyət üçün açıq olan qeydiyyatı aparılacaq, ödənişlərin, o cümlədən annuitet və sığorta ödənişlərinin elektron formada həyata keçirilməsi imkanı, kreditlərə zəmanət verilməsi mexanizmi və s. təmin ediləcək.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən müvafiq dövlət qurumlarının informasiya sistemlərindən aşağıda qeyd olunan məlumatların elektron sistemə ötürülməsi təmin ediləcək:

- ipoteka krediti almaq istəyən şəxsin şəxsiyyətini təsdiq edən sənəd üzrə məlumatlar;
- ipoteka krediti almaq istəyən şəxsin nikah (və ya nikahın pozulması) haqqında şəhadətnaməsi üzrə məlumatlar;
- ipoteka krediti almaq istəyən şəxsin (birgə borcalanın) iş yerini və gəlirlərini təsdiq edən məlumatlar;
- ipoteka krediti almaq istəyən şəxsin ailə tərkibi barədə məlumatlar;
- ipoteka krediti almaq istəyən şəxsin vergi orqanları tərəfindən qəbul olunmuş gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi;
- ipoteka krediti almaq istəyən şəxsin mərkəzləşdirilmiş kredit reyestrindən məlumatları;
- ipoteka qoyulan daşınmaz əmlakla bağlı dövlət reyestrindən məlumatlar;
- güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olan şəxslər barədə məlumatlar;
- ipoteka krediti almaq istəyən şəxsin sosial sığorta ödənişləri barədə məlumatlar.




İpoteka krediti əldə etmək üçün elektron müraciətin tətbiqini müsbət qiymətləndirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, indiyə qədər bir sıra banklarda ipoteka almaqda süründürməçilik və hətta əlavə ödənişin istənilməsi halları mövcud idi və bu da ipoteka kreditinə əlçatanlığı məhdudlaşdırırdı: «Elektron müraciət bu cür neqativ halları aradan qaldıra bilər. Bu baxımdan, elektron müraciətlərin şəffaf və hesabatlı şəkildə öyrənilməsi və cavablandırılmasına nəzarətin gücləndirilməsi vacibdir. Yeniliklər arasında  həm sosial, həm də adi ipoteka kreditləri üçün maksimum məbləğin 50 min manatdan 100 min manatadək artırılması, dövlət büdcəsindən ayrılacaq 50 milyon manat ilə yanaşı istiqrazlar hesabına əlavə 50 milyon manatın, bütövlükdə isə 100 milyon manatın gələn il ipoteka kreditləşməsinə yönəldilməsi diqqət çəkən məqamlardandır».

Qeyd edək ki, «Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına verilən ipoteka kreditləri  manatla və yalnız Azərbaycan vətəndaşlarına şamil ediləcək. Alınan ev mütləq dövlət qeydiyyatında olmalı, eləcə də kredit götürən şəxsin həyatı kredit məbləğində sığortalanmalıdır.

**AYTƏN**

# Məcburi dövlət sosial sığortası

Məcburi dövlət sosial sığorta haqqının ödəyiciləri sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir. Onlar əmək müqaviləsi ilə işçi qüvvəsindən istifadə etməyərək fəaliyyətlərini müstəqil surətdə  həyata keçirirlər və əsas məqsədləri mənfəət əldə etməkdir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olub əmək müqaviləsi ilə işçi qüvvəsindən istifadə edən fiziki şəxslər sığortaedənlər hesab olunur.

Azərbaycanda sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyatı orqanı Vergilər Nazirliyidir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin məcburi dövlət sosial sığortası üzrə Dövlət Sosial Müdafiə Fondu orqanlarında uçotu Vergilər Nazirliyinin təqdim etdiyi uçot məlumatları əsasında aparılır.

Qanunçuluğa əsasən, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər də məcburi dövlət sosial sığortasına cəlb edilən şəxslər hesab olunurlar. Təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda sahibkarlıq fəaliyyətindən gəlir əldə edən əcnəbilər məcburi dövlət sosial sığortasını ödəməlidirlər. Muzdlu əməklə və sahibkarlıq fəaliyyəti ilə bağlı olan gəlirlər məcburi dövlət sosial sığorta haqqının tutulma obyekti sayılır. Məcburi dövlət sosial sığortasına cəlb edilən gəlirlərə muzdlu işlə bağlı olan gəlir-əmək ödənişi və muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir -sahibkarlıq fəaliyyətindən gəlirlər aiddir.  Əmək ödənişi və digər gəlirlərə isə  qanunvericilikdə nəzərdə tutulmuş bütün növ əməkhaqqı və əməkhaqqına əlavələrin növləri, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir və digər ödənişləri aiddir.

Əməkhaqqı əvəzinə verilən malların, işlərin və xidmətlərin qiymətləri dövlət tərəfindən tənzimləndiyi halda, məcburi dövlət sosial sığorta haqqı həmin məhsulların (işlərin, xidmətlərin) dövlət tərəfindən tənzimlənən qiymətləri ilə ifadə olunan dəyərinə uyğun hesablanır.

Hüquqşünas Adəm Məmmədovun sözlərinə görə, bütün növ icbari və könüllü tibbi sığorta və üç ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası istisna olmaqla, digər sığorta növləri üzrə sığortaedənin sığortaolunanın xeyrinə ödədiyi sığorta haqları ilə sığorta ödənişi  arasındakı fərq kimi alınan gəlirdən məcburi dövlət sosial sığorta haqqı ödəniş mənbəyindən tutulur: «İşçinin əmək fəaliyyəti ilə bağlı sığortaedənə olan borcu və ya öhdəliyi bağışlanıldığı halda, həmin borcun və ya öhdəliyin məbləği məcburi dövlət sosial sığortasına cəlb olunur. Məcburi dövlət sosial sığortasına cəlb olunmayan gəlirlərin siyahısı isə daha genişdir. Bura iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavələr; qanunvericiliklə müəyyən edilmiş ezamiyyə xərclərinin məbləğləri; işçilərin sayının azaldılması və s. ödəmələr daxil edilib. Məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə nisbətdə faizlə müəyyən edilir və sığortaedənin  vəsaitləri hesabına ödənilir. Ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki  şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının 50 faizi məbləğinin, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki  şəxslər isə 20 faizi məbləğinin: Bakı şəhərində 100 faizi, Sumqayıt və Gəncə şəhərlərində 90 faizi, respublika tabeli digər şəhərlərdə 80 faizi, rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi, kənd yerlərində 50 faizi  miqdarında məcburi dövlət sosial sığorta haqqı  ödəyirlər».

A.Məmmədovun sözlərinə görə, fərdi qaydada sahibkarlıq  fəaliyyəti ilə məşğul olan fiziki şəxslər qeyd olunan dərəcələrlə məcburi dövlət sosial sığorta haqqını hesablayıb ödəməlidirlər. Əmək müqaviləsi  ilə işçi qüvvəsindən istifadə etməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər işçilər üçün məcburi dövlət sosial sığorta haqqını əməyin ödənişinə nisbətdə müəyyən edilmiş dərəcələrlə ödəyirlər: «Bir neçə fəaliyyət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər əsas fəaliyyət sahəsi üzrə müəyyən edilmiş dərəcələrlə məcburi dövlət sosial sığorta haqqı ödəyirlər. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən əsas fəaliyyət sahəsi ümumi hasilatın  həcminə nisbətdə müəyyən edilir və bu barədə müvafiq təsdiqedici sənəd  Dövlət Sosial Müdafiə Fondu (DSMF) orqanına təqdim olunmalıdır».

Hər ay üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqı əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağd və ya nağdsız hesablaşma qaydasında ödənilir. Ödəmə mənbəyindən qonorar ödəyən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən məcburi dövlət sosial sığorta haqqı qonorarın hesablandığı aydan sonrakı ayın 15-dək ödənilir. Bank orqanlarında hesaba malik olmayan sahibkarlar məcburi dövlət sosial sığorta haqqını təsdiq edilmiş mədaxil qəbzləri əsasında, eləcə də bank orqanları və ya poçtamt vasitəsilə nağd qaydada ödəmə yolu ilə DSMF orqanlarının hesabına köçürürlər. Sığortaedənlər uçota alındığı DSMF orqanına hər rüb və hər il hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı və digər daxil olan məbləğlər barədə hesabat təqdim edirlər. İllik hesabat hər il üçün növbəti ilin mart ayının 1-nə kimi təqdim edilməlidir.

Sığortaedənlər hesabatları elektron qaydada təqdim etmək imkanlarına da malikdirlər. Bunun üçün əvvəlcə DSMF-nin rəsmi saytına (www.sspf.gov.az) daxil olub «Elektron xidmətlər» bəndi, «İnteraktiv xidmətlər» bölməsində isə «Məcburi dövlət sosial sığortası üzrə hesabatların və məlumatların təqdim olunması» xidməti seçilməlidir. Ekranın sağ tərəfində «Kömək» düyməsini basmaqla qeydiyyatla bağlı zəruri məlumatları əldə ediləndən sonra «Yeni istifadəçinin qeydiyyatı» düyməsi sıxılaraq ərizə forması elektron formada doldurulmalıdır. Qeydiyyatdan keçirdikdən sonra istifadəçi kodunu, parolu və şifrəni almaq üçün DSMF-nin yerli orqanına müraciət edilməlidir. İstifadəçi kodu, parol və şifrə vasitəsilə DSMF-nin rəsmi saytındakı (www.sspf.gov.az) «Elektron xidmətlər»in «İnteraktiv xidmətlər» bölməsində «Məcburi dövlət sosial sığortası üzrə hesabatların və məlumatların təqdim olunması»  xidmətindən istifadə edilməklə hesabatlar müvafiq qaydada tərtib oluna və elektron qaydada göndərilə bilər.

**Fəxriyyə İKRAMQIZI**

# Azad iqtisadi zonalar sahibkarlığın inkişafını stimullaşdıracaq

AZƏRTAC-ın məlumatına əsasən, «Azad ticarət zonası (ATZ) sahəsində Bakı Limanına dəstəyin göstərilməsi» adlı texniki yardım layihəsinin təqdimatı olub və «Azad ticarət zonaları» mövzusunda seminar  keçirilib.

Seminarda çıxış edən «Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadov bildirib ki, Bakı Limanı və ATZ-nin yaradılması Avropa İttifaqına daxil olan ölkələrlə ticarət dövriyyəsinə ciddi təsir göstərəcək: nəqliyyat, logistika, İKT, kənd təsərrüfatı və s. sahədə ixtisaslaşan Avropa şirkətlərinin ATZ-dən faydalanması, böyük bazarlara çıxış təmin edən zonada istehsal sahələrinin inkişafına şərait yaradacaq. Vurğulanıb ki, nəzərdə tutulan işlərin reallaşdırılması Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı, yeni elmtutumlu istehsalların yaradılması və regionların inkişafına dair siyasətinin bir hissəsidir. Texniki yardım layihəsinin məqsədi Bakı Limanına ATZ sahəsində Avropanın qabaqcıl təcrübəsinin gətirilməsi, kadrların hazırlanması və təlim ehtiyaclarının ödənilməsidir.

Avropa İttifaqının Azərbaycandakı səfiri xanım Malena Mard çıxışında layihənin 1 il müddətində icra olunacağını, Bakı Limanına qabaqcıl Avropa təcrübəsinin tətbiqinə kömək göstərəcəyini bildirib. Tədbirdə azad iqtisadi zonalar və iqtisadi inkişaf məsələləri üzrə beynəlxalq ekspert və texniki yardım layihəsinin rəhbəri Toni Restall «Yeni Bakı limanın və Ələt azad ticarət zonasının əməliyyat imkanlarının yaxşılışdırılmasına dəstək» mövsuzunda təqdimatla çıxış edib.

Xatırladaq ki, Prezident İlham Əliyevin 17 mart 2016-cı il tarixli sərəncamı ilə Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı görüləcək tədbirlər təsdiq edilib.

Azərbaycanda azad ticarət zonasının 2017-ci ilin birinci yarısında işə başlayacağı gözlənilir.

## vergi təqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | **4** |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | **11** |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | **18** |
| 19 | **20** | 21 | 22 | 23 | 24 | **25** |
| 26 | 27 | 28 | 29 | 30 | **31** | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 dekabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqlarını ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz  zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Avropa İttifaqı «vergi inqilabına» başlayır

Vergi məsələləri üzrə Avropa komissarı Pyer Moskovisi bəyan etmişdir ki, Avropa Komissiyasının «vergi şəffaflığı sahəsində hazırladığı inqilab» vergilərin ödənilməsindən yayınmaya qarşı təsirli mübarizə aparmağa şərait yaradacaq. Avropanın gələcəyi mövzusuna həsr edilmiş sammitdəki nitqində komissar bildirmişdir ki, «Lüksemburq sızıntısı», «Panama sənədləri» və «Baham sızıntısı» kimi hadisələr Avropa Komissiyasını həlledici addımlar atmağa vadar etmişdir.

P.Moskovisinin sözlərinə görə: «Avropa İttifaqı ölkələri tezliklə bank sirrindən imtina edəcəklər, şirkətlər isə vergi dərəcəsini azaltmaq və ümumiyyətlə vergi ödəməkdən yayınmaq üçün sərhədləri manipulyasiya etmək imkanından məhrum olunacaqlar.

Bundan əlavə, Avropa Komissiyası «vergi limanları» hesab olunan ölkələrə təsir göstərmək üçün onların «qara siyahısını» açıqlayacaq».

# Yunanıstanda vergidən yayınma nisbəti yüksəkdir

«Ernst & Young» konsaltinq şirkətinin son təhlilinə görə, Yunanıstanda vergidən yayınmanın illik həcmi ümumi daxili məhsulun (ÜDM) 9%-nə çata bilər. Şirkətin apardığı araşdırma zamanı məlum olmuşdur ki, fiziki şəxslər arasında illik vergidən yayınma ÜDM-in 1,9-4,7%-nə bərabərdir. Bundan başqa, hər il əlavə dəyər vergisi tam yığılmadığına görə, ÜDM-də təxminən 3,5% itki olur.

Alkoqollu içkilər və tütün məhsulları kimi malların qaçaq yollarla dövriyyəsinə görə vergidən yayınma Yunanıstanda ÜDM həcmini 0,45% aşağı salır. Beləliklə, ölkədə vergidən yayınmanın ümumi həcmi illik ÜDM-in 6-9%-nə çatır.

«Yunanıstanda ən geniş yayılmış vergidən yayınma halları bir sıra amillərlə, o cümlədən vergi dərəcəsinin yüksək olması, bütövlükdə vergi sisteminin mürəkkəbliyi və pərakəndəliyi ilə bağlı ola bilər, - «Ernst & Young» şirkətinin Yunanıstan üzrə vergi departamentinin rəhbəri Stefanos Mitsios bildirmişdir. - Bizim mövqeyimizə görə, vergi inzibatçılığı daxilində bürokratiya azaldılmalı və avtomatlaşdırılmış proseslər tətbiq edilməlidir, konkret olaraq, ödəniş kartlarından daha geniş istifadə olunmaqla nağd pul dövriyyəsi məhdudlaşdırılmalıdır».

# «Airbnb» 700 şəhərlə vergi sazişi bağlamağı planlaşdırır

Dünya üzrə evlərin qısamüddətli icarəsi ilə məşğul olan «Airbnb» beynəlxalq internet portalı gələn ilin sonuna qədər 700 şəhərlə vergi razılaşmalarını rəsmiləşdirməyi nəzərdə tutur. İndiyədək bu portal təxminən 200 şəhərlə vergi sazişi imzalayıb ki, bu sənədlər həmin şəhərlərdə mehmanxana yığımlarını toplamağa və yerli büdcələrə köçürməyə imkan yaradır.

Turizm şirkətləri isə kommersiya qurumlarının daşıdıqları hüquqi və ya vergi öhdəliklərindən azad olan bu portala öz bizneslərinin təhlükəli rəqibi kimi yanaşırlar.

Portalın rəhbəri Brayan Çeski demişdir ki, fəaliyyət göstərdikləri 700 böyük şəhərin hakimiyyət dairələri ilə sazişlərin imzalanması onların bu ittihamlardan azad olunmasına şərait yaradır.

## Xəbər lenti

**İrlandiya**nın maliyyə naziri Maykl Nunan bəyan etmişdir ki, gündəlikdə korporativ verginin dərəcəsini qaldırmaq barədə məsələ yoxdur. Onun fikrincə, vergi dərəcəsinin dəyişdirilməsi işgüzar dairələrdə inamsızlıq yarada bilər.

**Ukrayna** gələn il yanvarın 1-dən vergidən yayınmaya qarşı mübarizə üzrə BEPS planına qoşulacaqdır.

**İsveçrə** ilə Lixtenşteyn arasında ikiqat vergitutmanın aradan qaldırılması barədə 2015-ci ilin iyulunda ratifikasiya olunmuş saziş gələn il yanvarın 1-dən qüvvəyə minəcək.

**Rusiya**da aylıq əməkhaqqı 15 min rubldan (412 manat) az olan vətəndaşlar fiziki şəxslərin gəlir vergisindən azad ediləcəklər, bunun əvəzinə varlılardan tutulan vergi 30% artırılacaq.

**Almaniya**da hazırda 16 federal ərazinin hər birində daşınmaz əmlak almaq üçün ödənilən vergi fərqlidir və 3,5%-6,5% arasında dəyişir. Artıq parlamentdə bu dərəcələrin aşağı salınması barədə məsələ qaldırılmışdır.

**Rusiya**da fəaliyyət göstərən İnternet Ticarət Şirkətləri Assosiasiyasının hazırladığı qanun layihəsində ölkədə əlavə dəyər vergisi ödəməyən internet riteylerlərinin saytlarının blok edilməsi normalarına da yer verilmişdir.

**Avstraliya** xəzinədarlığı qeyri-məcburi uniforma üçün 500 min nəfərdən tutulan verginin ləğv edilməsi təklifini irəli sürmüşdür. Xəzinədarlığın hesablamasına görə, bundan federal büdcə ildə 30 milyon dollar qabağa düşə bilər.

**Türkiyə**də bahalı avtomobillər üçün xüsusi istehlak vergisinin dərəcəsi 3% artırılmışdır. Ölkənin maliyyə naziri bu addımın yerli avtomomobil sənayesinin tələbinə əsasən atıldığını bildirmişdir.

# G20 ölkələri arasında ən sadə korporativ vergi sistemi Böyük Britaniyadadır



«PwC» şirkətinin bu il üçün müəyyənləşdirdiyi reytinq sıralamasına əsasən, Böyük Britaniyada vergitutmanın tədricən təkmilləşdirilməsi şirkətlərin fəaliyyətini asanlaşdırmaqla yanaşı, həm də dövlət büdcəsinə daxil olan vəsaitlərin artımına şərait yaradır. Hesabatda qeyd edilmişdir ki, dünyanın ən böyük 20 ölkəsi (G20) arasında daha əlverişli korporativ vergi sisteminə malik olması Böyük Britaniyanı biznes həyata keçirmək üçün dünyadakı ən cəlbedici on ölkə sırasına çıxarmışdır. Həmin siyahıda vergi dərəcəsinin aşağı olduğu kiçik ölkələr - Qətər, Honkonq, Bəhreyn və İrlandiya öndədirlər. Böyük Britaniya isə iri dövlətlər arasında seçilir. Ölkənin reytinqinin yüksəlişində 2010-cu ildə 28% olan vergi dərəcəsinin hazırda 20%-ə endirilməsinin ayrıca yeri olduğu qeyd edilir. Burada vergi ödənilməsi prosesində buraxılan səhvlərə görə qarşıya çıxan bürokratik əngəllərin azaldılmasının da müəyyən rolu vardır.

«PwC» şirkətinin vergi bölməsinin rəhbəri Kevin Nikolson onlayn rejim vasitəsilə vergi ödənilməsi prosedurunun sadələşdirilməsini yüksək qiymətləndirdiyini bildirmişdir. Onun sözlərinə görə, digər ölkələr də öz vergi sistemlərini təkmilləşdirdikləri üçün Böyük Britaniya yüksək reytinqini qoruyub saxlamaq niyyətindədirsə, əldə etdiyi nailiyyətlərlə kifayətlənməməlidir.

Müşahidələr göstərir ki, Böyük Britaniya biznes mühitinin canlandırılması üçün radikal addımlar atılmasını davam etdirəcək. Ölkənin Baş naziri Tereza Meyin radikal addım atacağı - korporativ verginin dərəcəsini dünyanın ən böyük 20 ölkəsi arasında ən aşağı səviyyəyə endirəcəyi gözlənilir. Bu addımın atılmasında da əsas məqsəd tədqiqat və emal sahəsinə daha çox sərmayə cəlb etmək üçün şirkətlərin stimullaşdırılmasıdır. Baş nazir qeyd etmişdir ki, dövlət innovasiyalarla məşğul olan şirkətləri daha fəal dəstəkləyəcəkdir: «Biz mühüm araşdırmalarla məşğul olan və araşdırmaların elmi nəticələrini kommersiya uğuruna çevirməyi bacaran Britaniya şirkətlərinə dəstək verməliyik. Bundan başqa, biz innovasiyalara meyil edən şirkətlərin vergi sistemi vasitəsilə dəstəklənməsini də nəzərdən keçirəcəyik. Mənim məqsədim G20 ölkələri arasında korporativ verginin ən aşağı dərəcə ilə tutulmasıdır».

Qeyd edək ki, hazırda 20% olan korporativ verginin dərəcəsinin 2020-ci ilə qədər 17%-ə qədər aşağı salınması gündəlikdədir və bu planın reallaşması Böyük Britaniyanı inkişaf etmiş iqtisadiyyata malik ölkələr arasında ən aşağı korporativ vergi tutan ölkələrdən birinə çevirəcək.

# İsveç günəş enerjisindən vergi tutulmasını ləğv edə bilər

Ölkədə fəaliyyət göstərən ekoloji təşkilatların sərt tənqidindən sonra hökumət günəş enerjisinə bu yaxınlarda tətbiq edilməyə başlanılmış verginin ləğv olunması təklifi ilə çıxış etmişdir. Xatırladaq ki, 2016-cı ilin əvvəlində İsveç hökuməti 255 kVt-dən artıq günəş enerjisi istehsalı üçün vergi tətbiq etmişdi. Bu verginin günəş batareyalarından istifadə edən ev təsərrüfatlarına dəxli olmasa da, kommersiya məqsədilə enerji istehsalı ilə məşğul olan bir çox şirkətlər hökumətin qərarından narazı qalmışdı.

Günəş enerjisi üçün qoyulmuş verginin 2017-ci ildə 98% azaldılması nəzərdə tutulur, verginin tam ləğv edilməsi isə texniki səbəblərə görə mümkün deyil. İsveçin maliyyə naziri xanım Maqdalena Andersson bildirmişdir: «Bu addımı atmağımız bizə enerji sektoruna sərmayə cəlb etməyə imkan yaradacaq, uzun müddət üçün qarşıya qoyduğumuz məqsəd isə günəş enerjisi istehsalının vergidən tam azad edilməsidir».

# Yaponiya hökuməti işləyən ər-arvad üçün vergi güzəştini artırmağı təklif edir

Gələn il üzrə nəzərdə tutulan vergi islahatları ilə bağlı aralıq məruzəsində Yaponiya hökumətinin vergi komissiyası məşğulluq sahəsində qadınların fəallığını artırmaq məqsədilə hazırda mövcud olan vergi tutulması qaydalarının dəyişdirilməsini təklif etmişdir.

Ər və arvadın hər ikisinin işlədiyi ailədə qazancı az olanın ev təsərrüfatı ilə məşğul olmasına və gəlir vergisi güzəştindən tam istifadə etməsinə imkan yaradan maksimal gəlirinin həddi 1.030.000 yen (9450 ABŞ dolları) təşkil edir. Əgər ailənin gəliri bundan aşağı olarsa, gəliri yuxarı olan ailə üzvü vergi tutulmayan həddin əlavə 380.000 yenədək artırılmasını tələb edə bilər.

Göstərilən hədd son dərəcə aşağı hesab edildiyindən, qadınların çoxu işə çıxmağa tərəddüd edir. Komissiyanın hazırda tamamlanma mərhələsində olan tövsiyəsinə görə, 2017-ci il aprelin 1-dən əməkhaqqının gəlir vergisi tutulmaq üçün müəyyənləşdirilmiş həddi artırılmalıdır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Almaniyada kommuna; 2.Şamaxı rayonunda kənd. Qadın adı; 3.Oksidlər sinfinə aid dəyərli mineral daş. Qədim dövrlərdə ləl adlanırdı; 4.Hindistanın şərqində ştat; 5.Uran, titanium və sirkoniumu kəşf edən alman kimyaçı; 6.Arı yuvası; 7.Dünyanın aparıcı enerji şirkətlərindən biri; 13.Fransada nüfuzlu kino festivalı keçirilən şəhər; 15.Sovet kino və teatr artisti, rejissor, ssenarist, estrada müğənnisi. «Brilyant əl», «İtalyanların Rusiyada qeyri-adi macəraları» və s. filmlərdə çəkilmişdir; 16.Alkanlar sinfindən doymuş karbohidrogen; 17.Alman dramaturqu, şairi və nasiri. XIX əsr alman ədəbiyyatında görkəmli yer tutan sənətkar hesab edilir; 18.SSRİ-də nəşr olunmuş populyar qəzet, Kommunist Partiyasının əsas mətbuat orqanı; 20.Borc alınan pul və s. müqabilində təminat üçün verilən əmlak; 21.Alış-veriş yeri. Həftənin günü.

**Soldan sağa:** 1.Əldə fırlatdıqda tez-tez dəyişən, rəngli naxışlar göstərən, boruşəkilli optik cihaz (oyuncaq); 8.Uduşları dərhal ödənilən lotereya; 9.Müəssisənin sahib olduğu bütün maddi mülkiyyəti əhatə edən anlayış, mühasibat termini; 10.Neftin fraksiyası; 11.Aralıq dənizi hövzəsində cənub və cənub-şərq istiqamətində əsən güclü, isti külək; 12.Üst paltar üçün naxışlı yun parça; 14.İdarə və müəssisələrin rəsmi nişanı; 19.Evkommiya cinsinə aid bitki növü (ağac); 21.1490-1574-cü illərdə Hindistanda hakimiyyətdə olmuş səltənət; 22.Fransız əsilli postimpressionist rəssam; 23.Rusiya və Sovet kinorejissoru, ssenarist, aktyor, prodüser və şairi. «Həmişə təmizlikdə», «İşdə məhəbbət macərası», «Qaraj» və s. filmlərinin rejissoru; 24.Assortiment, çeşid; 25.Birjada faktiki vəziyyətdən asılı olaraq qanunvericilik normaları daxilində məhsul, xidmət, qiymətli kağızlar və valyutaların qiymətlərinin, məzənnələrinin müəyyən edilməsi.



*«Brilyant əl» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kəhriz; 2.Nordrax; 3.Ozann *(Qottfrid Vilhelm)*; 4.İndeks; 5.İnisial; 6.Mələk; 7.Samara; 13.Etna; 15.İmereti; 16.Baobab; 17.Qudeno; 18.Satira; 20.Buqro *(Vilyam)*; 21.Qremi. **Soldan sağa:** 1.Kondominium; 8.Harvard; 9.İslam *(Səfərli)*; 10.İmran *(Qasımov)*; 11.Klinker; 12.Kxmer; 14.Elçin *(Həmidov)*; 19.Ambundu; 21.Qaeta; 22.Biqo; 23.Sereteli *(Zurab)*; 24.Bio; 25.Biofizika.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# «Qızıl Qran-pri» beynəlxalq turnirinə yekun vuruldu

Noyabrın 24-də Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-pri» beynəlxalq turnirinin final mərhələsinə start verilib. Əllidən çox ölkədən 700-ə yaxın güləşçinin mübarizə apardığı turnirin birinci günündə sərbəst güləş üzrə 57, 61, 65, 70, 74, 86, 97 və 125 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib. Baş məşqçi əvəzi Firdovsi Umudovun rəhbərliyi ilə məşqçilər korpusunun daha çox gənc güləşçilərə şans verdiyi yığmamız 3 qızıl, 1 gümüş və 3 bürünc medala sahib olub. Qızıl medalları yığmamıza Giorgi Edişeraşvili (57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq) və Cəbrayıl Həsənov (74 kq) qazandırıblar. Gitinomaqomed Hacıyev (70 kq) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətlənib. Bürünc medallara isə Coşqun Əzimov (65 kq), Murad Süleymanov (74 kq) və Aslanbek Alborov (97 kq) layiq görülüblər.




**Azərbaycan güləşçiləri yarışlarda 7 qızıl, 3 gümüş və 7 bürünc medal qazandılar**

«Qızıl Qran-pri» beynəlxalq turnirinin ikinci günündə qadın güləşi üzrə 48, 53, 55, 58, 60, 63, 69 və 75 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib. Azərbaycan güləşçiləri yarışı bir gümüş və iki bürünc medalla başa vurublar. Güləşçilərimizdən Tatyana Omelçenko (60 kq) finala qədər inamla irəliləyib. Ancaq güləşçimiz final görüşündə Ukrayna təmsilçisinə uduzub və gümüş medalla kifayətlənib. Bürünc medalları yığmamıza Anjela Doroqan (53 kq) və Alyona Kolesnik (55 kq) qazandırıblar. Yığma komandamızın üzvlərindən Elmira Qəmbərova (63 kq) və Elis Manolova (69 kq) bürünc medal uğrunda görüşləri uduzaraq beşinci yerdə qərarlaşıblar.

Noyabrın 26-da isə yunan-Roma güləşi üzrə 59, 66, 71, 75, 80, 85, 98 və 130 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib. Güləşçilərimiz son yarış günündə 4 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Qızıl medalları yığmamıza Həsən Əliyev (71 kq), Rafiq Hüseynov (80 kq), İslam Abbasov (85 kq) və Oyan Nəzəriani (130 kq) qazandırıblar. Yalnız final görüşündə uduzan Elvin Mürsəliyev (75 kq) isə gümüş medalla kifayətlənib. Bürünc medallar Rövşən Tağıyev (66 kq) və Soltan İsmayılovun (85 kq) payına düşüb.

Beləliklə, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-pri» beynəlxalq turnirinin final mərhələsini güləşçilərimiz bütövlükdə 7 qızıl, 3 gümüş və 7 bürünc medalla başa vurublar.

# Azərbaycan voleybol üzrə Avropa çempionatına ev sahibliyi edəcək

Noyabrın 24-də Heydər Əliyev Mərkəzində 2017-ci ildə Azərbaycanın və Gürcüstanın birgə ev sahibliyi edəcəyi qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsinin püşkü atılıb. Püşkün nəticələrinə görə, Azərbaycan millisi «A» qrupunda Almaniya, Polşa və Macarıstan yığma komandaları ilə birgə mübarizə aparacaq. «B» qrupunda Gürcüstan, İtaliya, Xorvatiya və Belarus yığmaları yarışacaq. Rusiya, Türkiyə, Bolqarıstan və Ukrayna millilәri «C», Serbiya, Niderland, Belçika və Çexiya yığmaları isə «D» qrupunda güclərini sınayacaqlar.

Çempionata ev sahibliyi edən Azərbaycan və Gürcüstan, həmçinin «Avro-2015»in mükafatçıları - Rusiya, Hollandiya, Serbiya, eləcə də ilk beşlikdə qərarlaşan Türkiyə və Almaniya mötəbər yarışa birbaşa final mərhələsindən başlayacaqlar. İtaliya, Belçika, Polşa, Xorvatiya, Bolqarıstan və Belarus çempionata ikinci seçmə mərhələdən, Çexiya, Ukrayna və Macarıstan isə pley-offdan qoşulacaqlar.

Qeyd edək ki, postsovet məkanında ilk dəfədir ki, iki ölkə - Azərbaycan və Gürcüstan voleybol üzrə Avropa çempionatına ev sahibliyi edəcək.

# Şahmat üzrə dünya çempionu tay-breykdə məlum olacaq

Nyu-Yorkda Dünya Şahmat Tacı uğrunda hazırkı çempion norveçli Maqnus Karlsen ilə iddiaçı, rusiyalı Sergey Karyakin arasında gərgin mübarizə davam edir. İndiyədək hərəyə cəmi bir qələbə qazanan şahmatçılar 12-ci partiyada da heç-heçə ediblər. Cəmi 37 dəqiqə çəkən sonuncu qarşılaşmada qrossmeysterlər 30-cu gedişdə «sülhə» razı olublar. 10-u heç-heçə ilə bitən 12 partiyanın yekununa görə, matçda hesab bərabərdir - 6-6. Beləliklə, reqlamentə əsasən, qalibin adı noyabrın 30-da keçiriləcək tay-breykdə müəyyən ediləcək.

Xatırladaq ki, Dünya Şahmat Tacı uğrunda yarışın mükafat fondu 1,1 milyon dollardır.




# Ulduz futbolçu 10 illik həbs cəzası ala bilər

Hazırda Türkiyənin «Antalyaspor» klubunun şərəfini qoruyan kamerunlu ulduz futbolçu Samuel Eto`O vaxtilə «Barselona»da oynayarkən törətdiyi vergi cinayətlərinə görə 10 illik həbs cəzasına məhkum edilə və 14 milyon avro məbləğində cərimə oluna bilər. İspaniya prokurorları bəyan ediblər ki, S.Eto`O 2006-2009-cu illərdə vergi orqanlarından 3 milyon funt sterlinqdən artıq vəsait yayındırdığına görə ona qarşı müvafiq tədbirlər görüləcək. Yayılan məlumata görə, vergi hüquqpozmaları oyunçunun şəklinin yayılmasının hüquqi şərtləri ilə bağlıdır. Digər tərəfdən, şəxsi sponsor olan «Puma»dan gələn vəsaitlərin gəlirləri korporativ vergiyə cəlb olunub, halbuki bu gəlirlərə görə futbolçudan ən yüksək dərəcə ilə gəlir vergisi tutulmalı idi. Futbolçu isə irəli sürülmüş iddiaları rədd edərək bildirib ki, onun özü birbaşa vergi məsələləri ilə məşğul olmayıb.



mozaika

robototexnika

## Hava şarına bənzəyən qeyri-adi robot




Meksikanın paytaxtı Mexikoda keçirilmiş IEEE-nin 2016-cı il humanoid robotları beynəlxalq konfransında çoxlu sayda yeni robot və robototexnika sistemi təqdim edilib. Los-Ancelesdəki Kaliforniya Universitetinin «RoMeLa» laboratoriyası mütəxəssislərinin hazırladıqları BALLU robotu xüsusi marağa səbəb olub.

Nazik ayaqlar üzərində dayanan robot helium geli ilə doldurulmuş hava şarından ibarətdir. Buna görə də o yıxılmır, hərəkət edir, hoppanır və bir neçə digər məzəli hərəkətlər edir. Robotun yeganə mənfi cəhəti küləkli günlərdə küçədə öz hərəkətlərini tənzimləyə bilməməsidir. Suyun üstündə isə robot, demək olar ki, adi vəziyyətdə olduğu kimi hərəkət edə bilir. BALLU öz «çiyinləri» üzərində hər hansı ağır yükü daşımaq üçün nəzərdə tutulmayıb.

Hazırda «RoMeLa» laboratoriyasının mütəxəssisləri bu robotun dördayaqlı variantı üzərində işləyirlər. BALLU robotu yaxın gələcəkdə xüsusi hallarda kifayət qədər yüksək maneələr üzərindən tullanmaq kimi bir neçə yeni imkana malik olacaq.

araşdırma

## Kiçik uşaqlarda autizmin diaqnostikası asanlaşıb

Nyu-York Universitetinin mütəxəssisləri iki yaşdan kiçik uşaqlarda autizmin diaqnostikası üçün proqram yaradıb. Yeni proqramı smartfon, kompüter və ya planşetə yükləmək olar. Sosial vəziyyət təsvirlərinə baxış prosesində bu proqram vasitəsilə uşaqların göz hərəkətləri izlənilib, sonra həmin məlumatlar təhlil edilərək autizm əlamətləri axtarılıb. Mütəxəssislərin fikrincə, autizm spektri pozulmayan uşaqlar belə şəkillərə autistlərlə müqayisədə daha uzun müddət baxırlar. Məsələ bundadır ki, autizm spektri pozulan uşaqlar sosial münasibətləri başa düşə bilmirlər.

Yeni proqramın köməyi ilə diaqnostika prosesi cəmi 54 saniyə çəkir və 93,96 faiz dəqiqliklə diaqnoz qoymağa imkan verir. Mütəxəssislər vurğulayırlar ki, gələcəkdə valideynlər narahatlıq üçün əsas olub-olmadığını bu proqram sayəsində müəyyən edə biləcəklər.

sağlam həyat tərzi

## Ömrü uzatmaq üçün...

Alimlər artıq çoxdandır bəzi insanların orta statistik adamdan çox yaşamasının sirrindən baş çıxarmağa çalışırlar.

Stenford Universitetinin alimləri müəyyən ediblər ki, rasionunda müəyyən məhsullar olan insanların ömrü 20 il uzana bilər. Alimlərin yeni araşdırmasında 40 yaşından başlayan yaş qrupundan olan 11 min kişi və qadın iştirak edib. Onlar hər gün yediklərini təsvir etmək üçün gündəlik tutublar.

Alimlər araşdırmanın nəticələrini təhlil edəndən sonra müəyyən ediblər ki, ölüm hallarının çoxuna yanlış qidalanma səbəb olub. Həmçinin onlar aydınlaşdırıblar ki, meyvə-tərəvəz, qoz-fındıq yeyən adamlar özlərini pis hiss etməkdən az şikayət ediblər və 20 il çox yaşayıblar. Alimlər əmindirlər ki, meyvə-tərəvəz, qoz-fındıq insanın ömrünü uzadır, çünki bu məhsullar ürək-damar sisteminin fəaliyyətini yaxşılaşdırır və bütövlükdə orqanizmə müsbət təsir göstərir.



Onu da qeyd edək ki, tədqiqatda əvvəllər insult və ya ürəktutması keçirmiş insanlar iştirak ediblər. Tədqiqatçılar əvvəllər xəstə olmuş adamları məxsusi olaraq seçmişlər ki, qidalanma ilə sağlamlığın əlaqəsi haqqında daha dəqiq məlumat ala bilsinlər.

Daha bir araşdırma isə insanı daha çox acdıran ərzaq məhsulları ilə bağlı olub. Kompleks müşahidələri İtaliyada yerləşən klinik mərkəzin əməkdaşları aparıblar. Dietoloqların fikrincə, ağ çörəyin tərkibində çoxlu faydalı maddələr var, lakin onu cem və ya kərə yağı ilə yemək lazımdır. Yumurtada zülal çoxdur, lakin onu yedikdən sonra insan yağ və kalori ilə zəngin əlavə yeməklər istəyir.

Yağsızlaşdırılmış süd məhsulları orqanizmi zəruri miqdarda vitaminlərlə təmin etmir, ona görə də kişilərdə və qadınlarda aclıq hissi yaranır. Bu cür yoqurtların əvəzinə adi süd içmək daha faydalıdır. Konservlərdə və duza qoyulmuş məhsullarda aclıq yaradan və iştahı artıran çoxlu duz var. Kəpəkli undan hazırlanan krekerlər və ağ düyü aclıq hissi yarada bilər, bu səbəbdən də həmin təamları axşam saatlarında yemək məsləhət deyil.

texnologiya

## Mobil telefon bir neçə saniyəyə enerji yığacaq

ABŞ-ın Florida Universitetinin alimləri super-kondensatorun prototipini hazırlayıblar. Yeni texnoloji prosesin köməyi ilə sürətli enerji yığan yüksək tutumlu batareyalar yaratmağın mümkün olacağı açıqlanıb. Qeyd olunub ki, yeni batareyalar enerjini adi litium-ion elementindən 20 dəfə çox saxlaya biləcək.



Universitetinin əməkdaşı Nitin Çudxari bildirib ki, yeni ixtiranın köməyi ilə mobil telefonlar bir neçə saniyə ərzində enerji yığacaq və bir həftə ərzində telefonu doldurmaq lazım gəlməyəcək. Mütəxəssisin sözlərinə görə, hazırda istifadə olunan litium-ion akkumulyator batareyalarını 1500 dəfə enerji ilə doldurmaq olur. Sonra onların istifadə dövrü bitir və batareyalar zəifləyir. Yeni prosesin yaradıcıları bildirirlər ki, onların ixtira etdikləri super-kondensator 30 min dəfə tam enerji yığdıqdan sonra da deqradasiyaya uğramayacaq.




ELAN

**«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

Müdriklər deyib ki...

*«Düzlük tənqidi sevir, çünki tənqidə görə ancaq udur; yalan tənqiddən qorxur, çünki tənqidə görə uduzur».*

*Deni Didro (1713—1784)*

